RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 187 (9066) CÜMƏ AXŞAMI, 1 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin növbəti diplomatik uğuru

## Avropa İttifaqı Şurasının təşəbbüsü ilə keçirilən sülh danışıqlarında Azərbaycan üstünlüyünü bir daha təmin etdi

Dünən Brüsseldə Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının növbəti, dördüncü mərhələsi reallaşdı. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçiriləcək görüşdə İlham Əliyevlə N.Paşinyan baş verən proseslər və götürülən öhdəliklərin icra prosesi ilə bağlı danışıqlar apardılar.

### Hərbi-siyasi qələbənin növbəti və vacib mərhələsi

Qalib komandan kimi İlham Əliyev dördüncü Brüssel görüşünə də hərtərəfli üstünlüklə yollanmışdı.

Ermənistanın növbəti təxribatına cavab olaraq "Qisas" cavab əməliyyatının keçirilməsi və ordumuzun Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklərin nəzarətə götürülməsi və yeni Laçın avtomobil yolunun istifadəyə verilməsi ilə Laçın şəhəri, Zabux, Sus kəndlərinin boşaldılması bu prosesin tərkib hissəsi idi. Yəni, İlham Əliyev bir daha göstərmiş oldu ki, Qarabağ və Şərqi Zəngəzurda hər mənada üstünlük Azərbaycandadır və qalib ölkə 10 noyabr Üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərini vaxtından əvvəl reallaşdırır. Əlbəttə ki, bu üstünlüklər diplomatik müstəvidə də aparılan danışıqlara təsirsiz ötüşməməli idi. Bu mənada dördüncü Brüssel görüşü İlham Əliyevin siyasi qələbəsinin növbəti və vacib mərhələsi idi.

Dördüncü görüşün gündəliyində duran əsas məsələlər sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası, nəqliyyat məsələləri, həmçinin itkin düşmüş şəxslər və minalar problemi idi.

Görüşdən sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel açıqlama verərək bəyan etdi ki, tərəflər dövlətlərarası münasibətləri tənzimləyən sülh müqaviləsi üzrə irəliləyiş əldə etmək üçün əsaslı işi gücləndirmək barədə razılığa gəlib və xarici işlər nazirlərini mətn layihələri üzərində işləmək üçün bir ay ərzində görüşmək barədə təlimatlandırıb.

→ 2

# Sülh danışıqları prosesində irəliləyiş var



**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 31-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü keçirilib.**

## Azərbaycan Prezidenti İlham Əliyev İtaliyaya işgüzar səfərə gedib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə avqustun 31-də Romaya işgüzar səfərə gedib.

## Şarl Mişelin mətbuata bəyanatı

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə avqustun 31-də keçirilmiş üçtərəfli görüşün yekunlarına dair mətbuata bəyanat verib.

AZƏRTAC bəyanatın mətnini təqdim edir:

"May ayında keçirilmiş son görüşümüzdə razılaşdığımız kimi, bu gün mən Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşdüm.

Bu, bizim bu formatda dördüncü görüşümüz idi. Biz Cənubi Qafqazda son hadisələr və Avropa İttifaqı ilə hər iki ölkə arasındakı münasibətləri müzakirə etdik.

Bizim fikir mübadilələrimiz açıq və məhsuldar keçdi. Buna görə hər iki liderə təşəkkür edirəm. Biz gündəliyimizdəki bütün məsələləri nəzərdən keçirdik.

Bizim son görüşümüzdə əldə etdiyimiz razılaşmalar istiqamətində bəzi addımların atıldığını görmək sevindirici haldır.

→ 2

## Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı yeni inkişaf mərhələsindədir

Azərbaycan və özbək xalqları çox qədim dövrlərdən başlayaraq bir-birilərinə ictimai-siyasi, mənəvi və dini tellərlə möhkəm bağlıdırlar və hər ikisi türkdilli xalqlar qrupuna aiddirlər. Tarixi, dili, dini, mədəniyyəti, adət-ənənələri eyni çeşmədən qaynaqlanan Azərbaycan və Özbəkistan xalqları bütün dövrlərdə məhz bu prinsipləri əsas götürərək öz aralarındakı münasibətləri daim inkişaf etdiriblər. Müstəqillik əldə etdikdən sonra müasir Azərbaycan və Özbəkistan respublikalarının yaradıcıları Ulu Öndər Heydər Əliyevlə İslam Kərimov arasında uzun müddət davam edən çox xoş münasibətlər sayəsində ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələri daha da möhkəmlənib.

Azərbaycan və Özbəkistan arasında olan bu xoş münasibətlər hazırda Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev tərəfindən uğurla davam etdirilir və əhatə dairəsi daim genişləndirilir. İndiyə kimi hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri nəticəsində ölkələrimiz arasında 144 sənəd imzalanıb.

→ 4

## Ermənistan ordusunda cinayətlər leqallaşır

Qarabağ müharibəsindən sonra Ermənistanda 27-35 yaşarası 3225 vətəndaşın orduda xidmətdən yayındıqlarına görə axtarışda olduqları açıqlanmışdı. Yerdə qalan hərbi xidmətdən qaçan minlərlə insan isə 27 yaş həddinə çatmayan gənclərdir. Hazırkı vəziyyətə olan məlumatlara əsasən, məcburi hərbi xidmətdən yayınan 10 min erməni gəncin axtarışda olması barədə faktlar mövcuddur.

"4rd.am" saytı dərc etdiyi məqalədə son bir ildə orduda baş verən neqativ halları şərh edərkən maraqlı faktlar açıqlayıb. Qeyd edilib ki, 2021-ci ildə Ermənistan ordusunda özünəqəsd hallarının sayı 20-ni ötüb: "Ümumilikdə isə orduda ölən əsgərlərin sayı 80-dən çoxdur. Əgər bir əsgər öz canına qıyırsa, demək, bunun arxasında kifayət qədər müəmmalı, şübhəli hallar var. Eyni zamanda əsgər-komandir inamsızlığı, etimadsızlığı mövcuddur və nizamnamədənkənar hallar baş verir. Valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyəti komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olması ilə bağlıdır. Yəni əsgərlər alçaldılır və döyülürlər".

→ 7



# Xarici KİV nümayəndələri Şuşa şəhəri ilə tanış olublar

→ 2



# İlham Əliyevin növbəti diplomatik uğuru

## Avropa İttifaqı Şurasının təşəbbüsü ilə keçirilən sülh danışıqlarında Azərbaycan üstünlüyünü bir daha təmin etdi

*Əvvəli 1-ci səh.*

Həmçinin humanitar məsələlər, o cümlədən minalardan təmizlənmə, saxlanılanlar və itkin düşənlərin taleyi ilə bağlı ətraflı müzakirə aparılıb.

Brüsseldə növbəti görüşün vaxtı da müəyyənləşdirilib. Şarl Mişel, İlham Əliyev və Nikol Paşinyanın beşinci görüşü noyabrın sonuna qədər reallaşmalıdır.

Göründüyü kimi, Avropa İttifaqı Şurasının təşəbbüsü ilə başlanan sülh danışıqları prosesində müəyyən irəliləyişlər var. Bütün danışıqlarda isə qalib dövlət kimi Azərbaycan üstünlüyünü təmin edir.

Əlavə edək ki, Aİ Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə bu formatda ilk görüş 2021-ci il dekabrın 14-də, ikinci görüş bu il aprelin 6-da, üçüncü görüş isə may ayının 22-də keçirilib. Sonuncu görüşdən sonra tərəflər razılığa gəliblər ki, sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası dövlətlərarası sərhəddə yaxın günlərdə baş tutsun. Bu iclasda sərhədin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı bütün məsələlərə toxunulacaq. Kommunikasiya ilə əlaqədar liderlər nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurəti üzərində razılığa gəliblər. Onlar Azərbaycanın qərb hissəsi ilə Naxçıvan və Azərbaycan ərazisindən Ermənistanın müxtəlif hissələri arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılıq əldə ediblər. Tərəflər xüsusilə beynəlxalq daşımalar kontekstində sərhəd idarəetmə prinsipləri, təhlükəsizlik, eləcə də gömrük rüsumları və qaydaları barədə razılığa gəliblər və yaxın günlərdə Baş nazirlərin müavinləri bu işi davam etdirəcəklər.

Bu prosesin tərkib hissəsi kimi aqustun 30-da Moskva şəhərində Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə müvafiq olaraq, iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, həmçinin dövlət sərhədinin delimitasiyası, sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın ikinci görüşü keçirilib. Görüşdən əvvəl Rusiya Federasiyası hökuməti sədrinin müavini A.Overçuk Ş.Mustafayev və M.Qriqoryan ilə görüşüb, komissiyaların işinin davam etdirilməsini alqışlayıb. Tərəflər təşkilati və prosedur məsələləri müzakirə edib, komissiyaların gələcək işi və birgə fəaliyyətinin reqlamenti üzrə predmetli fikir mübadiləsi aparıblar. Həmçinin komissiyanın növbəti iclasının yeri açıqlanıb. Azərbaycan və Ermənistanın Baş nazir müavinləri Şahin Mustafayev və Mher Qriqoryanın üçüncü görüşü noyabrda Belçikanın paytaxtı Brüsseldə olacaq.

### Bakı və İrəvan arasında yeni razılaşma olacaq

Dünən Rusiya xarici işlər naziri Sergey Lavrov iranlı həmkarı Hüseyn Əmir Abdullahyanla Moskvada keçirdiyi birgə mətbuat konfransında da Azərbaycan və Ermənistan arasındakı sülh danışıqları prosesinə toxunub. Nazir bildirib ki, Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması məsələləri ilə Rusiya, Azərbaycan və Ermənistan Baş nazir müavinlərinin iştirak etdiyi Üçtərəfli İşçi Qrupu məşğul olur.

"Ən yaxın vaxtda razılaşmalar olacaq. Rusiya tərəflər arasında sıx əlaqədədir",- deyə Lavrov vurğulayıb. Lakin XİN başçısı razılaşmaların nədən ibarət olacağı haqda ətraflı məlumat verməyib.

Bir sözlə, dördüncü Brüssel danışıqlarında da İlham Əliyev bir daha Azərbaycanın sülh sazişinin imzalanma prosesinə hazır olduğunu, ölkəmizin üzərinə düşən bütün öhdəlikləri vaxtında yerinə yetirdiyini bəyan etdi. Bundan öncə keçirilən hər üç görüşdə olduğu kimi dördüncü görüşdə də Azərbaycan hərtərəfli üstünlüyünü təmin etmiş oldu.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Xarici KİV nümayəndələri Şuşa şəhəri ilə tanış olublar

BMT-də akkreditə olunan xarici KİV nümayəndələri işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarından sonra Şuşa şəhərində olublar.





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşı qonaqlara Şuşa şəhəri, işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verib. Bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri olan Şuşa şəhər mərkəzi meydanına gələn qonaqlara güllələnmiş heykəllər barədə məlumat verilib. Bildirilib ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana aparıb əridərək materiallarını satmaq istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Xarici media nümayəndələri sonra Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları ilə tanış olublar. Nümayəndə heyətinə Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Merdinli məhəlləsinə gələn xarici jurnalistlər Şuşanın digər məhəllələrində olduğu kimi, burada da yaşayış evlərinin və tarixi abidələrin ermənilər tərəfindən dağıdılmasının şahidi olublar. Bildirilib ki, qədim Şuşada 17 məhəllə var. Məhəllələrin doqquzu aşağı məhəllə, qalan səkkizi isə yuxarı məhəllə sayılırdı. Hər məhəllədə hamam, məscid və bulaq var idi. Qədim məhəllələrdəki tarixi-memarlıq nümunəsi olan tikililər, o cümlədən məscidlər erməni vandalizminə məruz qalıb. Qonaqlara XIX əsrə aid Şirinsu hamamında, tarzən Sadıqcanın evində aparılan bərpa işləri barədə də məlumat verilib.

BMT-də akkreditə olunan xarici KİV nümayəndələri sonda Cıdır düzünə gəlib, buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər. Qonaqlar daha sonra Zəngilan rayonuna yola düşüblər.

# Şarl Mişelin mətbuata bəyanatı

*Əvvəli 1-ci səh.*

**Sülh razılaşması**

Bu gün biz Ermənistan və Azərbaycan arasındakı dövlətlərarası münasibətləri nizamlayan sülh müqaviləsinin irəliləməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı razılığa gəldik və xarici işlər nazirlərinə layihə mətnlərinin hazırlanması üçün bir ay ərzində görüşmək barədə tapşırıq verdik.

**Humanitar məsələlər**

Biz, həmçinin humanitar məsələlər, eləcə də minaların təmizlənməsi, əsirlər və itkin düşmüş şəxslərin taleyi barədə ətraflı müzakirələr apardıq. Avropa İttifaqı bu məsələlərlə məşğul olmaqda davam edəcək.

**Sərhəd məsələləri**

Biz sərhədlərin delimitasiyasına dair bütün məsələlərlə bağlı əldə olunmuş irəliləyişləri və sabit vəziyyəti daha yaxşı təmin etməyi nəzərdən keçirdik.



Biz Sərhəd Komissiyasının növbəti iclasının noyabrda Brüsseldə keçirilməsi ilə bağlı razılığa gəldik.

**Kommunikasiya**

Biz nəqliyyat xətlərinin açılması ilə bağlı şərtlərin müzakirəsində əldə olunmuş nəticələri nəzərdən keçirdik.

Bütün bu müzakirələrlə qeyd etmək istəyirəm ki, hər iki tərəfin əhalisini uzunmüddətli və davamlı sülhə hazırlamaq vacibdir. Bu istiqamətdə ictimai mesaj çox əhəmiyyətlidir - bu cür həssas situasiyada digər tərəf ictimaiyyətdə danışılan hər bir sözü həqiqətən eşidir və qiymətləndirir.

Avropa İttifaqı uzunmüddətli və davamlı sülh istiqamətində öz dəstəyini bundan sonra da göstərməyə hazırdır.

Avropa İttifaqı hər iki ölkənin və onların əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə davam edəcək.

Biz noyabrın sonunda yenidən bu formatda görüşməklə bağlı razılığa gəldik".

# BMT-də akkreditə olunan xarici media nümayəndələri Şərqi Zəngəzura səfər ediblər

BMT-də akkreditə olunan xarici KİV nümayəndələri işğaldan azad edilən Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Zəngilana səfər ediblər.









AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, KİV nümayəndələri Zəngilan rayonunun Ağalı kəndinə gəliblər. Burada qonaqları Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev qarşılayıb. KİV nümayəndələrinə Zəngilan rayonu barədə məlumat verilib. Bildirilib ki, Zəngilan 27 il düşmən işğalında qalıb, şəhər mərkəzi ilə bərabər, 5 qəsəbə və 79 kənd tamamilə yerləyeksan edilib. Rayon əhalisi öz doğma yurdundan didərgin düşərək məcburi köçkün həyatı yaşayıb. Yaşayış yerləri, tarixi mədəni və dini abidələr dağıdılıb.

Həmçinin erməni işğalı zamanı Zəngilan ekoloji terrora məruz qalaraq flora və faunası da məhv edilib. Yaşı 300 ildən çox olan palıd, çinar ağacları, hektarlarla qoz ağacları, digər yaşıllıqlar məhv edilib. Bir sözlə, Zəngilanın hər qarışında erməni vandalizminin izləri özünü büruzə verir.

Diqqətə çatdırılıb ki, 44 günlük müharibə zamanı Zəngilan erməni işğalından azad edilərək əsl sahiblərinin nəzarətinə keçib. Vurğulanıb ki, 27 il düşmən əsarətində qalan Zəngilan artıq iki ildir yenidən tikilir. Ağalı kəndində 200 evin inşası başa çatdırılıb, uşaq bağçası, məktəb və bir neçə inzibati bina inşa edilib. Həmçinin kənddə daha 150 evin, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin tikilməsi də planlaşdırılır.

Qeyd edilib ki, hazırda Ağalı kəndində 41 ailənin 201 üzvü məskunlaşıb. Ağalı kəndində əhalinin sosial rifahının yaxşılaşdırılması üçün məşğulluq məsələləri, başda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olmaqla, dövlət qurumlarının xüsusi nəzarəti altındadır. Həmçinin bildirilib ki, Zəngilanda mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi üçün Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə köhnə Zəngilan şəhər məscidinin əsaslı şəkildə təmiri aparılır, yaxınlığında isə şəhər əhalisinin sayı nəzərə alınaraq yeni, daha böyük bir məscidin tikintisinə başlanılıb. Həmçinin Zəngilanda İşğal, Zəfər muzeyləri kompleksi və Memorial parkın tikintisi də planlaşdırılıb.

Zəngilan ərazisindən keçən Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi 2023-cü ildə, Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun inşası isə 2024-cü ildə yekunlaşacaq. Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün 2021-ci ilin aprel ayından tikintisinə başlanılan Zəngilan Beynəlxalq Hava Limanı isə bu ilin sentyabr ayında istifadəyə veriləcək. Artıq limanda ilk sınaq uçuşları yerinə yetirilib.

Zəngilanın yenidən qurulmasında ilk vacib məsələ ermənilərin işğal illərində zərər vurulmuş ekosisteminin bərpasıdır. Diqqətə çatdırılıb ki, Zəngilanın Bəsitçay hövzəsi boyunca yerləşən təbii çinar meşəsi Avropanın ən böyük, dünyanın isə ikinci ən böyük çinar meşəsi idi. Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində çinar meşələrinə də ekosid həyata keçirilib. İşğaldan azad edilən Zəngilan rayonu ərazisində mütəxəssislər tərəfindən meşələrə vurulan ziyanın qiymətləndirilməsi prosesi aparılıb. Zərər vurulmuş ekosistemin bərpası üçün 2020-ci ilin dekabr ayından başlayaraq Zəngilan rayonu ərazisində 20000 çinar ağacı və 1000 kiloqrama yaxın palıd toxumu əkilib. Təbii potensialının olmasını nəzərə alaraq Zəngilan rayonunda həm dayanıqlı kənd təsərrüfatının, həm də turizm sahəsinin, xüsusilə ekoturizm və kənd turizminin inkişafına təkan verə biləcək sahələrin inkişafı da nəzərdə tutulub. İstər kənd təsərrüfatının inkişafı, istərsə də turizm potensialının istifadəsi burada yaşayan əhalinin məşğulluğuna müsbət təsir edəcək.

Sonra xarici KİV nümayəndələri kənddə yaradılan infrastrukturla tanış olublar.

# Prezident Administrasiyasında Yeni Yol Partiyasının sədri ilə görüş keçirilib

Avqustun 31-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və yeni dövlət qeydiyyatına alınmış Yeni Yol Partiyasının sədri Ramil Hüseynov arasında görüş keçirilib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı şöbə müdiri Ədalət Vəliyev partiyanın dövlət qeydiyyatına alınması münasibətilə Ramil Hüseynovu təbrik edib və partiyaya fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı vurğulanıb ki, siyasi partiyaların cəmiyyətdə artan nüfuzu Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan köklü siyasi islahatların nəticəsidir. Yeni siyasi konfiqurasiyanın uğurla inkişaf etdirilməsi, iqtidar-müxalifət dialoqunun təşviqi bu islahatların tərkib hissəsidir.

İqtidar-müxalifət siyasi dialoqunun və siyasi partiyalarla sağlam əməkdaşlığın qurulması nəticəsində son iki ildə Yeni Yol Partiyası da daxil olmaqla 10 siyasi partiyanın dövlət qeydiyyatına alınması, siyasi partiyaların ofislə təmin edilməsi, partiyaların qurultaylarının keçirilməsi və təsis sənədlərində edilmiş dəyişikliklərin dövlət qeydiyyatına alınması, siyasi fəaliyyət üçün bütün lazımi şəraitin yaradılması görüşdə xüsusi vurğulanıb.

Qeyd edilib ki, yeni siyasi konfiqurasiya və ölkədə aparılan islahatların strateji hədəfləri ölkədə dayanıqlı demokratik ənənələrin dərinləşməsi, cəmiyyətin inkişafı naminə iqtidar-müxalifət münasibətlərinin konstruktiv əməkdaşlıq formatına transformasiyasıdır. Siyasi partiyaların cəmiyyətin siyasi həyatında vacib rol oynadığını vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün siyasi partiyalar öz beynəlxalq əlaqələrini inkişaf etdirməlidir.

Siyasi partiyalar arasında sağlam münasibətlər mühitinin yaradılmasının vacibliyini qeyd edən şöbə müdiri bildirib ki, Vətən müharibəsi dövründə əldə edilmiş siyasi həmrəylik, siyasi partiyaların Ali Baş Komandan, Prezident İlham Əliyevin yanında olması, bununla bağlı birgə bəyanat və müraciətlərin imzalanması iqtidar-müxalifət dialoqunun nə qədər önəmli olmasını bir daha sübut etdi.

Şöbə müdiri siyasi sabitliyin əhəmiyyəti barədə danışaraq bildirib ki, radikal siyasi meyillər dövlətçiliyə olan təhdid kimi qiymətləndirilməlidir. Bu səbəbdən hər bir siyasi partiya buna qarşı mübarizə aparmalı və cəmiyyətin ümumi inkişafına öz töhfəsini verməlidir.

Həmçinin Milli Məclis tərəfindən "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması zərurəti, partiyaların fəaliyyəti üçün yeni hüquqi bazanın formalaşmasının vacibliyi qeyd edilib.

Yeni Yol Partiyasının sədri Ramil Hüseynov görüş üçün təşəkkürünü bildirib və ölkədə aparılan siyasi islahatları yüksək qiymətləndirib. Siyasi partiyaların fəaliyyəti üçün bütün imkanların dövlət tərəfindən təmin edildiyini diqqətə çatdıran partiya sədri siyasi fəaliyyətində dövlətin təməl prinsiplərini əsas tutacağını söyləyib. R.Hüseynov bildirib ki, yeni siyasi konfiqurasiyanın inkişafı, ölkədə sağlam siyasi mədəniyyətin formalaşdırılması, iqtidar-müxalifət dialoqunun aparılması ölkəmizdə güclü siyasi sistemin yaradılmasına dəlalət edir. Bu səbəbdən Yeni Yol Partiyası həmin istiqamətdə sağlam münasibətlərin qurulmasında fəal iştirak edəcəkdir.

# Azərbaycanın müdafiə naziri Türkiyənin Milli Müdafiə Universitetini ziyarət edib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyədə işgüzar səfəri çərçivəsində qardaş ölkənin Milli Müdafiə Universitetini ziyarət edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik Z.Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar və digər dövlətlərdən olan həmkarları ilə birgə universitetin "Şərəf kitabı"nı imzalayıb.

Sonra qonaqlara Zəfər Bayramının 100-cü ildönümü münasibətilə təşkil olunan konsert proqramı təqdim edilib.

# Müdafiə naziri Türkiyənin Hərbi Dənizçilik və Təyyarəçilik məktəblərinin buraxılış mərasimində iştirak edib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Türkiyənin Zəfər Bayramının 100-cü ildönümü münasibətilə keçirilən silsilə tədbirlərdə iştirak etmək üçün müdafiə naziri general-polkovnik Zakir Həsənovun qardaş ölkədə işgüzar səfəri davam edir.



Avqustun 31-də Türkiyə Respublikasının Ali Hərbi Dənizçilik Məktəbinin və Ali Hərbi Təyyarəçilik Məktəbinin məzunlarının buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək məzunları buraxılış münasibətilə təbrik edib. General-polkovnik Z.Həsənov Türkiyədə səfərdə olan digər dövlətlərin nümayəndələri ilə birlikdə hərbi məktəblərin məzunlarının buraxılış mərasimində iştirak edib.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və vətəndaşların bölgələrdə qəbulu cədvəlinə uyğun olaraq, ədliyyə naziri Fikrət Məmmədov Şirvan şəhərində Şirvan, Hacıqabul, Salyan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, xüsusilə Vətən müharibəsi iştirakçılarının, qazilərin və şəhid ailələrinin qayğılarına həssaslıqla yanaşılıb, ədliyyə fəaliyyəti ilə bağlı qaldırılan məsələlərin bəzilərinin yerində həlli ilə bağlı tədbirlər görülüb, digərləri isə araşdırılması üçün nəzarətə götürülüb və müvafiq tapşırıqlar verilib.

Səfər zamanı nazir bölgənin ədliyyə qurumlarına və məhkəmələrə, o cümlədən şəhərdə fəaliyyət göstərən regional apellyasiya, kommersiya və inzibati məhkəmələrə baş çəkərək iş şəraiti ilə tanış olub. Onların yaxşılaşdırılması üzrə tədbirlər müəyyən edilib, ədliyyə işçiləri və hakimlərlə müşavirələr keçirilib.

* * *

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov avqustun 31-də Ağstafa rayon Heydər Əliyev Mərkəzində Qazax, Ağstafa və Tovuz sakinləri, eləcə də digər rayonlardan qəbula gələn vətəndaşlarla görüşüb.

Ağstafa rayon Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib. Qəbulda iştirak edən sakinlərin müraciətləri əsasən işlə təmin olunma, fəxri adın verilməsi, mədəniyyət ocağının başqa binaya köçürülməsi, rayon mədəniyyət müəssisələrinin kadr məsələləri, uşaq musiqi və incəsənət məktəbləri üçün tədris vəsaitinə icazə verilməsi, tarix-mədəniyyət abidələrinin qorunması, kitabxana sisteminin inkişafı, bundan əlavə, aparıcı mədəniyyət ocaqlarının əsaslı təmiri, adın əbədiləşdirilməsi və digər məsələləri əhatə edib.

Anar Kərimov vətəndaşların müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

* * *

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov avqustun 31-i saat 10:00-da Quba şəhərində Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib. Qəbul Quba şəhərində Heydər Əliyev Mərkəzində keçirilib.

"Azərişıq" ASC-dən bildirilib ki, qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən baş tutub.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

*AZƏRTAC*

# Fövqəladə Hallar Nazirliyində müşavirə keçirilib



Fövqəladə Hallar Nazirliyində (FHN) nazir general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə müşavirə keçirilib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirin birinci müavini general-leytenant Rəfail Mirzəyev və nazirliyin aidiyyəti struktur bölmə və qurumlarının rəhbər heyətinin iştirak etdiyi müşavirə FHN-in maddi-texniki təchizatı və pilot layihə kimi hazırlanmış fövqəladə halların intellektual idarəetmə sisteminin tətbiqi ilə bağlı məsələlərin müzakirəsinə həsr olunub.

Müşavirədə çıxış edən nazir Kəmaləddin Heydərov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ən müasir texnika və avadanlıqlarla təchiz olunmuş Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının günün tələbinə və texnologiyaların inkişafı dinamikasına uyğun olaraq daim yenilənməsi həyata keçirilir. Məhz bunun sayəsində FHN baş verən istənilən fövqəladə hadisə ilə uğurla mübarizə aparır.

K.Heydərov bildirib ki, nazirliyin maddi-texniki təchizatının yenilənməsi üzərində işlər davam etdirilməli, habelə texnika və avadanlıqlara, o cümlədən yanğınsöndürmə və xilasetmə texnikalarına vaxtlı-vaxtında texniki qulluğun göstərilməsi məsələləri bundan sonra da daim diqqət mərkəzində saxlanılmalıdır.

Müasir texnologiyalardan iş prosesində istifadənin vacibliyinə toxunan nazir xüsusilə fövqəladə halların qarşısının vaxtında alınması və nəticələrinin çevik aradan qaldırılması istiqamətində ən son sistemlərin, o cümlədən rabitə və fövqəladə halların intellektual idarəetmə sistemlərinin tətbiqinin əhəmiyyətini qeyd edib.

Sonra fövqəladə halların intellektual idarəetmə sisteminin təqdimatı edilib. Bildirilib ki, bu sistem FHN-in qurumları arasında birgə fəaliyyətin daha yaxşı koordinasiya edilməsi və qüvvələrin daha effektli tətbiqi üçün nəzərdə tutulub. Geniş imkanlara malik bu sistem xüsusi və ən son nəsil müşahidə kameralarının köməyi ilə fövqəladə hal rayonunun real vaxt rejimində anında nəzarətə götürülməsi və qüvvələrin vaxt itirmədən çevik və səmərəli idarə edilməsinə imkan yaradacaq.

Bu sistemin əvvəlcə pilot layihə kimi konkret bir rayonda tətbiqi nəzərdə tutulur. Məhz bu pilot layihənin tətbiqi zamanı sistemin bütün xüsusiyyətləri praktiki olaraq real şəraitdə təhlil ediləcək, o cümlədən mümkün çatışmazlıqlar aradan qaldırılacaq və bundan sonra onun bütün ölkə üzrə tətbiqi ilə bağlı qərar veriləcək.

Təqdim olunan fövqəladə halların intellektual idarəetmə sistemini yüksək qiymətləndirən nazir Kəmaləddin Heydərov onun pilot layihə olaraq qısa müddətdə tətbiqi ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# Mədəniyyət naziri Qazaxda müəssisələrə baxış keçirib, mədəniyyət işçiləri ilə görüşüb

Mədəniyyət Nazirliyi sistemində fəaliyyətin və idarəçiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanan bölgələrə səfər planına uyğun olaraq, mədəniyyət naziri Anar Kərimov Qazax rayonuna səfər edib.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Anar Kərimov Qazax rayonunun Daşsalahlı kəndində "Avey" Dövlət-Tarix Mədəniyyət Qoruğunun "Damcılı" filialına baş çəkib. Nazirə məlumat verilib ki, burada dünya əhəmiyyətli qədim Damcılı mağara düşərgəsi və çox sayda mağaralar yerləşir. Ərazidə ilk dəfə 1953-1957-ci illərdə arxeoloji qazıntılar aparılıb və Avey dağında Daş dövrünə aid 30-a yaxın mağara aşkar edilib, buradan iki minə yaxın alət tapılıb. 2015-ci ilin yayında Yaponiyanın Tokio Universitetinin muzeyi, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu və "Avey" qoruğu arasında memorandum imzalanıb. Sənədə əsasən, yaponiyalı və azərbaycanlı mütəxəssislər bu ərazilərdə arxeoloji tədqiqat işləri aparırlar və hazırda araşdırmalar davam etdirilir.

Sonra 1970-ci ildə tikilən və vaxtilə "Yay kinoteatrı" kimi fəaliyyət göstərən Gənclərin Asudə Vaxt Mərkəzinin binasına baxış keçirilib.

Anar Kərimov 1980-ci ildən fəaliyyət göstərən Qazax rayon Mədəniyyət Mərkəzi ilə tanış olub, Qazax Dövlət Dram Teatrının, Qazax şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin fəaliyyəti ilə maraqlanıb. Nazirə məlumat verilib ki, 1991-ci ildən fəaliyyət göstərən musiqi məktəbində 241 şagirdin təlim-tərbiyəsi ilə 63 müəllim məşğul olur.

Daha sonra Qazax rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasına gələn Anar Kərimova 500 minə yaxın kitab fondu olan kitabxana haqqında məlumat verilib.

Səfər çərçivəsində nazir Anar Kərimov Qazax rayon Mədəniyyət Mərkəzində mədəniyyət işçiləri ilə görüşüb. Görüşdə Ağstafa, Qazax və Tovuz rayonlarında fəaliyyət göstərən mədəniyyət işçiləri iştirak ediblər.

Nazir tədbirdə çıxış edərək bölgələrdə mədəniyyət işçiləri arasında peşəkarlıq səviyyəsinin və təşəbbüskarlığın artırılmasının vacibliyini diqqətə çatdırıb. Nazirlik sistemində idarəçiliyin təkmilləşdirilməsi kontekstində mədəniyyət müəssisələrinin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasının prioritet məsələ olduğu vurğulanıb.

Tədbirdə mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib.

Nazir çıxışının sonunda problemlərin aradan qaldırılması, müəssisələrin daha səmərəli fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

Sonra konsert proqramı təqdim olunub. Konsertdə Qazax, Ağstafa və Tovuz uşaq musiqi məktəbləri və Tovuz rayon Mədəniyyət evinin kollektivləri rəngarəng musiqi nömrələri və rəqslər təqdim ediblər.

# Baş prokuror İranın hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşüb

Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Tehrana işgüzar səfəri davam edir.



Avqustun 31-də İranın daxili işlər naziri Əhməd Vəhidi ilə görüş keçirilib. Nazir Azərbaycanın tarixi torpaqlarının işğaldan azad olunması ilə nəticələnən 44 günlük Vətən müharibəsində ölkəmizin qazandığı parlaq qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Kamran Əliyev təbrikə görə təşəkkürünü bildirərək müstəqil Azərbaycanla İran arasında əlaqələrin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün də münasibətlərimizin Azərbaycan Prezidenti İlham Əliyevlə İran Prezidenti İbrahim Rəisinin yorulmaz səyləri nəticəsində yüksək səviyyədə olduğunu vurğulayıb.

Görüşdə hüquq-mühafizə orqanlarımız arasında işgüzar əlaqələrin inkişaf etdirilməsinin vacibliyi qeyd olunaraq, cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən narkotik və psixotrop maddələrin qaçaqmalçılığına qarşı mübarizə, habelə axtarışda olan şəxslərin cinayət məsuliyyətinə cəlb olunması məqsədilə təhvil verilməsi, təhlükəsizlik və hüquq-mühafizə fəaliyyəti sahəsində qarşılıqlı əməkdaşlıq və digər maraq kəsb edən mövzular müzakirə edilib.

Daha sonra Baş prokuror İran İslam Respublikasının Ali İnzibati Ədalət Məhkəməsinin sədri Hekmətəli Mozəffəri ilə görüşüb. Görüşdə ölkələrimizin prokurorluq və məhkəmə orqanları arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etməsindən məmnunluq ifadə olunub, hər iki ölkədə hüquq sahəsində aparılan islahatlar haqda danışılıb.

Həmçinin nümayəndə heyəti İranın Məhkəmə və Ədliyyə Qüvvələri nəzdində Statistika və İnformasiya Texnologiyaları Mərkəzinin fəaliyyəti ilə tanış olub. Mərkəzin rəhbəri Kazem Fərdlə görüşən Baş prokuror ölkəmizdə vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılması, prokurorluq və məhkəmə orqanlarına müraciət imkanlarının genişləndirilməsi məqsədilə "Elektron Prokurorluq" və "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə görülən işlərdən, prokurorluq və məhkəmə sistemində ən müasir informasiya texnologiyalarından istifadə edildiyini, bu sahədə nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edildiyini diqqətə çatdırıb.

Səfər çərçivəsində nümayəndə heyəti Tehranın "Evin" cəzaçəkmə müəssisəsini ziyarət edərək məhkumların saxlanma yeri və şəraiti, rejim qaydaları və penitensiar administrasiyanın fəaliyyəti ilə tanış olub.

Görüşlərdə ölkəmizin İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əli Əlizadə iştirak edib.

Nümayəndə heyətinin səfəri başa çatıb.

# Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı yeni inkişaf mərhələsindədir

## Eldar İBRAHİMOV: "Dost ölkələr arasındakı münasibətlər Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev tərəfindən uğurla davam etdirilir və əhatə dairəsi daim genişləndirilir"



***Sentyabrın 1-i Özbəkistan Respublikasının müstəqillik günüdür.***

***Son illərdə yeni dinamik xarakter alan Azərbaycan-Özbəkistan münasibətləri tarixi köklərə bağlıdır. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni etnik kökə malik olan iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. İki dost ölkə arasında diplomatik münasibətlər isə 1995-ci il oktyabrın 2-də qurulub. Ölkələrimiz müstəqilliklərini bərpa etdikdən sonra - 1996-cı ilin ortalarında Azərbaycanın Daşkənddə, 1998-ci ilin mayında isə Özbəkistanın Bakıda səfirlikləri fəaliyyətə başlayıb.***

***Prezident İlham Əliyevin bu ilin iyunun 21-də Özbəkistana səfəri, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"nin imzalanması münasibətlərin yüksələn xətlə inkişafına stimul verib.***

***Milli Məclisin İntizam komissiyasının və Azərbaycan-Özbəkistan parlamentlərarası əməkdaşlıq üzrə işçi qrupunun sədri Eldar İbrahimov qəzetimizə müsahibəsində məhz bu əlaqələrin tarixi, bu günü və inkişafı ilə bağlı ətraflı məlumat verib.***

*- Eldar müəllim, qardaş özbək xalqı özünün 31-ci müstəqillik gününü qeyd edir. Azərbaycan və Özbəkistan respublikaları və xalqları arasındakı əlaqələri necə qiymətləndirirsiniz?*

- Əvvəla, qardaş özbək xalqını müstəqillik günü münasibətilə təbrik edir, onlara daim çiçəklənən həyat və dostlarımıza doğma vətənləri olan Özbəkistan Respublikasında şad-xürrəm, əmin-amanlıq şəraitində yaşamağı arzu edirəm.

Azərbaycan və özbək xalqları çox qədim dövrlərdən başlayaraq bir-birilərinə ictimai-siyasi, mənəvi və dini tellərlə möhkəm bağlıdırlar və hər ikisi türkdilli xalqlar qrupuna aiddirlər. Tarixi, dili, dini, mədəniyyəti, adət-ənənələri eyni çeşmədən qaynaqlanan Azərbaycan və Özbəkistan xalqları bütün dövrlərdə məhz bu prinsipləri əsas götürərək öz aralarındakı münasibətləri daim inkişaf etdiriblər. Müstəqillik əldə etdikdən sonra müasir Azərbaycan və Özbəkistan respublikalarının yaradıcıları Ulu Öndər Heydər Əliyevlə İslam Kərimov arasında uzun müddət davam edən çox xoş münasibətlər sayəsində ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələri daha da möhkəmlənib. Azərbaycan bu dostluğa və qardaşlığa sadiq qalaraq Mərkəzi Asiyada özünün ilk səfirliyini məhz 1996-cı ildə Özbəkistanda açıb. Əbəs yerə deyil ki, Ulu Öndər Heydər Əliyev qeyd etmişdi: "Azərbaycan və özbək xalqları arasında olan əlaqələr qədim tarixə malikdir, bütün dövrlərdə bizim xalqlar dost olmuş, bir-birini müdafiə etmiş, mədəni dəyərlərimizi birlikdə inkişaf etdirmişlər". Bu münasibətlə İslam Kərimov demişdi: "Biz Azərbaycanı tariximizə, mentalitetimizə, dinimizə və mənəviyyatımıza görə yaxın olduğu üçün özümüzə yaxın ölkə sayırıq".

Azərbaycan və Özbəkistan arasında olan bu xoş münasibətlər hazırda Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev tərəfindən uğurla davam etdirilir və əhatə dairəsi daim genişləndirilir. İndiyə kimi hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri nəticəsində ölkələrimiz arasında 144 sənəd imzalanıb. Bu ilin iyun ayında Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri baş tutmuş və 9 sənəd, o cümlədən "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə" imzalanıb.

Bu günlərdə isə Prezident Şavkat Mirziyoyev Prezident İlham Əliyevə zəng edib və iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı və strateji əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi məsələləri müzakirə edilib. Məmnunluqla qeyd edilib ki, bu ilin iyun ayında ali səviyyəli görüşlərin yekunlarına əsasən əldə olunmuş razılaşmaların reallaşmasında nəzərəçarpacaq tərəqqi əldə edilib. Belə ki, bu il qarşılıqlı əmtəə dövriyyəsi 70 faiz artıb, kənd təsərrüfatı, ipəkçilik və toxuculuq sənayesi, maşınqayırma, kimya və digər sahələrdə birgə kooperasiya layihələrinin həyata keçirilməsinə başlanılıb. Eyni zamanda bildirilib ki, Özbəkistan - Azərbaycan İnvestisiya Fondunun tezliklə fəaliyyətə başlaması üzrə iş aparılır və mədəni-humanitar mübadilə genişlənir. Bütün bunlar onu göstərir ki, son vaxtlar ölkələrimiz arasında münasibətlər daha intensiv xarakter almaqla, onların həm ikitərəfli, həm də beynəlxalq təşkilatlarda, o cümlədən Türk Dövlətləri Təşkilatında əməkdaşlığı daha da genişlənir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan və Özbəkistan arasında humanitar sahədə də əməkdaşlıq durmadan artır. 2004-cü ildə Daşkənddə Nizami Gəncəvinin, 2008-ci ildə isə Bakıda Əlişir Nəvainin heykəllərinin açılışı olub. Özbəkistan Respublikasının büdcəsi hesabına Qarabağın işğaldan azad olunmuş ərazisində Azərbaycan xalqına hədiyyə olunacaq məktəbin tikintisinə başlanılıb. Bu münasibətlə Prezident İlham Əliyev iyun ayında Özbəkistanda dövlət səfərində olarkən Prezident Şavkat Mirziyoyevə Füzuli şəhərində məktəb tikintisinə dair verdiyi qərara görə dərin təşəkkür edərək bildirib ki, bu, bizə verilən ilk böyük hədiyyədir və məktəb bizim qardaşlığımızın simvolu olacaq, Azərbaycan xalqının yaddaşında əsrlərlə qalacaq.

Hesab edirəm ki, Azərbaycan və Özbəkistan respublikaları arasında iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq bundan sonra daha sürətlə inkişaf edəcək, dost və qardaş xalqlarımız arasında münasibətlər daim genişlənəcək.

*- Azərbaycan-Özbəkistan parlamentlərarası əməkdaşlıq üzrə işçi qrupunun sədri kimi iki ölkə parlamentləri arasındakı münasibətlər barədə nə deyə bilərsiniz?*

- Əvvəla, onu bildirmək istəyirəm ki, ölkələr arasında dostluq əlaqələrinin yaradılmasında, iqtisadi və digər sahələrdə münasibətlərin qurulub inkişaf etdirilməsində parlamentlərin böyük rolu var. Bu məqsədlə Azərbaycan müstəqillik əldə etdikdən və öz yeni parlamentini formalaşdırdıqdan sonra ilk növbədə dost ölkələrlə diplomatik əlaqələr yaradaraq həmin ölkələrin parlamentləri ilə əməkdaşlığa başladı.

Bu ölkələr sırasında ilk yeri tutan ölkələrdən biri də qardaş Özbəkistan Respublikasıdır. Müstəqil Azərbaycanda 1995-ci ildə formalaşan Parlamentdə - Milli Məclisdə Özbəkistan Respublikası ilə 1997-ci ildə dostluq qrupu yaradıldı. Hazırda Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun 26 deputatdan ibarət üzvü var və Milli Məclisin ən böyük işçi qrupundan biridir. Qrupumuz Özbəkistan parlamentinin yuxarı və aşağı palatasının üzvlərindən olan 13 deputatın birləşdiyi qrupla daim əlaqə saxlayır, fikir mübadiləsi aparır. Biz ən çox Özbəkistanda keçirilən Prezident və parlament seçkilərində Azərbaycan Respublikasının Milli Məclisinin, habelə TÜRKPA-nın, ATƏT-in və MDB Parlament Assambleyasının xətti ilə müşahidəçi qismində iştirak edirik. Mən və qrup üzvlərinin Özbəkistanın Azərbaycandakı keçmiş səfirləri və hazırkı səfiri Bahrom Aşrafxanovla dəfələrlə görüşləri olub, ölkələrimizi maraqlandıran məsələlər ətrafında müzakirələr aparılıb. İki ölkə üçün əlamətdar olan tarixi və milli bayramlar münasibətilə də görüşlər keçirilir və əlaqələrimizin genişləndirilməsi üçün tədbirlər görürük. 2020-ci ilin sentyabr ayında Özbəkistan tərəfinin təşəbbüsü ilə işçi qrupları arasında birinci videokonfrans keçirilib.

Əlbəttə, parlamentlərarası əlaqələrin möhkəmlənməsində əsas amillərdən biri parlament sədrlərinin görüşləri və qarşılıqlı səfərləridir. Bu ilin mart-aprel aylarında Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistanda rəsmi səfərdə olub. Səfər çərçivəsində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Ali Məclis Senatının Sədri Tənzilə Narbayeva və Ali Məclisin Qanunvericilik Palatasının Sədri Nurdinjon İsmoilovla görüşlər keçirilib. T.Narbayeva ilə görüşdə "Azərbaycan Respublikasının Milli Məclisi və Özbəkistan Respublikasının Ali Məclisinin Senatı arasında əməkdaşlıq haqqında Saziş", habelə parlamentlərarası əməkdaşlığın inkişafı üzrə "Yol xəritəsi" imzalanıb. Bundan əlavə, 2021-ci ilin aprel və noyabr aylarında da Sahibə Qafarova T.Narbayeva ilə, həmçinin 2022-ci ilin may ayında Nurdinjon İsmoilovla onun Azərbaycana rəsmi səfəri zamanı görüşləri olub. Bundan başqa, hər iki ölkənin parlament sədrlərinin müxtəlif beynəlxalq təşkilatların keçirdiyi iclaslarda daim görüşləri baş tutur və tərəfləri maraqlandıran məsələlər müzakirə edilir. Bu iclaslarda həm də ölkələrimiz bir-birinin mənafelərini müdafiə edirlər.

Özbəkistan Parlamentinin sədrlərinin indiyə kimi Azərbaycana bir rəsmi və üç işgüzar səfərləri baş tutub. 2019-cu ildə T.Narbayevanın işgüzar səfəri və 2022-ci ildə N.İsmoilovun rəsmi səfəri zamanı onların Prezident İlham Əliyevlə görüşləri olub. Bütün bunlar onu deməyə əsas verir ki, son illər Azərbaycan və Özbəkistan parlamentləri arasında əlaqələrin sıxlaşması ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edir. Bunu 2020-ci ilin 18 oktyabrında Qanunvericilik palatasının Sədri N.İsmoilovun Ermənistan-Azərbaycan münaqişəsində Özbəkistanın Azərbaycanın mövqeyini dəstəkləməsi haqqında məktubu bir daha sübut edir.

*- Siz həm də Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədrisiniz. Bu istiqamətdə Azərbaycan-Özbəkistan əlaqələri necə inkişaf edir?*

- Dostluq Cəmiyyəti 2002-ci ildə təsis edilib və yarandığı tarixdən indiyə kimi bu ictimai təşkilat mənim rəhbərliyim altında öz fəaliyyətini iki qardaş xalq arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində qurub.

Azərbaycan və özbək xalqları arasındakı münasibətlərin kökü uzaq keçmişə gedir. Dilimiz, dinimiz, adət-ənənələrimiz və mədəniyyətimiz eyni köklərə mənsubdur. Cəmiyyəti yaratmaqda məqsəd də bu əlaqələri və ənənələri SSRİ dağılandan sonra müstəqil dövlət kimi formalaşan ölkələrimizin suverenliyi dövründə də qoruyub saxlamaq və inkişaf etdirməkdir.

Azərbaycan-Özbəkistan əlaqələrinin siyasi, diplomatik, elmi-mədəni tarixi bütün dövrlərdə hər iki xalqın görkəmli hökmdarları, sərkərdələri, dövlət xadimləri və şairlərinin qardaşlığından, dostluğundan bəhrələnərək zənginləşmiş və bu gün də uğurla davam etməkdədir. Bu konteksdən çıxış edərək Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyəti öz fəaliyyətini xalqlarımız arasında mövcud olmuş xoş ünsiyyətin davam etdirilməsi və daha da möhkəmləndirilməsi istiqamətində qurub. Uzun müddətdir ki, cəmiyyətin idarə heyətinin üzvü kimi bir qrup ictimai-siyasi xadim, görkəmli ədəbiyyat və incəsənət xadimləri, o cümlədən Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov, Milli Elmlər Akademiyasının həqiqi üzvləri Kamal Abdulla və Nizami Cəfərov, filologiya elmləri doktoru Tərlan Quliyev, nəvaişünas alim, şair Akif Bağırov və başqaları bu işdə fəaliyyət göstərirlər. Onların təklifi və cəmiyyətin təşəbbüsü ilə ilk dəfə Bakıda Özbəkistanın Azərbaycandakı səfirliyinin və Azərbaycan Mədəniyyət Fondunun (2008-ci ildən Azərbaycan Yaradıcılıq Fondu adlanır) dəstəyi ilə 2004-cü ildə Nəvai və Füzuli poeziya gecələri keçirilib. Bildiyiniz kimi, bu iki şair eyni dövrdə yaşamış və öz əsərləri ilə Şərq intibahını zənginləşdirmişlər.

2003-cü və 2018-ci illərdə Bakıda yeni özbək ədəbiyyatının banilərindən biri, görkəmli özbək şairi və dramaturqu, əslən azərbaycanlı olan Məqsud Şeyxzadənin doğum gününün 95 və 110 illiyinə həsr olunmuş tədbirlər keçirilib. 2018-ci ildə Özbəkistanda Məqsud Şeyxzadənin anadan olmasının 110 illiyi təntənə ilə qeyd edilib və Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Məqsud Şeyxzadəyə həsr olunmuş "İki xalqın qüruru" adlı sənədli film çəkilib.

2006-cı ildə cəmiyyətin təşəbbüsü, Özbəkistanın Azərbaycandakı səfirliyinin və Azərbaycan Yaradıcılıq Fondunun dəstəyi ilə istiqlal şairimiz Xəlil Rza Ulutürkün özbək, qırğız və tatar şairlərinin əsərlərindən ibarət olan "Turan çələngi" kitabının təqdimatı keçirilib. Tədbirdə çıxış edənlər qeyd ediblər ki, belə tədbirlərin keçirilməsi türkdilli dövlətlər arasında əlaqələrin möhkəmlənməsinə və genişlənməsinə yeni impuls verir.

Bizim cəmiyyətin üzvü, filologiya elmləri doktoru Tərlan Quliyev görkəmli özbək şairi Əlişir Nəvainin "Mizan-ül-övzan" əsərini özbəkcədən Azərbaycan dilinə çevirmiş və 2007-ci ildə Daşkənddə və Bakıda Azərbaycanın Özbəkistandakı səfirliyinin, bizim cəmiyyətin, habelə AMEA-nın Füzuli adına Əlyazmalar İnstitutunun və Azərbaycan Yaradıcılıq Birliyinin birgə səyi ilə bu kitabın təqdimatı keçirilib.

2016-cı ildə Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyəti Özbəkistanın Azərbaycandakı səfirliyi və Azərbaycan Yaradıcılıq Fondunun təşəbbüsü ilə Şah İsmayıl Xətai və Zəhirəddin Məhəmməd Babura həsr olunmuş "İki sərkərdə, iki şair" adlı tədbir keçirib. Tədbirin keçirilməsində məqsəd bir tərəfdən, 1501-ci ildə görkəmli dövlət xadimi, sərkərdə və şair Şah İsmayıl Xətainin başçılığı altında yaradılan Azərbaycan Səfəvilər dövlətinin Azərbaycanın cənub və şimal torpaqlarını vahid dövlət tərkibində birləşdirərək mərkəzləşdirilmiş dövlətin əsasını qoyduğunu, digər tərəfdən isə, Şah İsmayıl ilə təqribən bir dövrdə türk torpaqlarının başqa bir ucunda digər türk sərkərdəsi, şairi, dini bir, dili bir özbək xalqının böyük oğlu Zəhirəddin Baburun (1483-1530) eyni amalla yaşamalarını, onların siyasi talelərinin, ədəbi zövqlərinin və sərkərdəlik məharətlərinin bir-birinə oxşadığını, qarşılıqlı kömək və dostluq etdiklərini göstərməkdir. Belə ki, Səfəvi dövlətinin hərbi qüvvələrinin yardımı ilə Zəhirəddin Baburun Heratı, Buxaranı və Səmərqəndi yenidən tutması, Şah İsmayıl ilə Baburun Kabulda görüşmələri faktı bunu sübut edir. Bunlar göstərir ki, Azərbaycan və özbək xalqları, həqiqətən də, həmişə dost və bir-birinə dəstək olmuşlar. Bu dostluq hazırda uğurla davam edir və bizim cəmiyyətin fəaliyyətinin əsas istiqaməti də əsrlərdən gələn bu münasibəti daha da inkişaf etdirmək, indiki və gələcək nəsillərə çatdırmaqdır.

Fürsətdən istifadə edərək Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə keçən il məni Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədri və iki ölkə arasında parlamentlərarası münasibətlərin inkişafına, dostluq və qardaşlıq əlaqələrinin gücləndirilməsinə verdiyim mühüm töhfələrə görə "Özbəkistan Respublikasının müstəqilliyinin 30 illiyi" döş nişanı ilə təltif etdiyinə görə öz dərin minnətdarlığımı bildirirəm.

*- Son vaxtlar türkdilli dövlətlər arasında münasibətlərin inkişafında bir canlanma müşahidə edilir. Sizcə, bu canlanmanın Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi parlaq qələbə ilə bağlılığı varmı?*

- Çox maraqlı sualdır. Tamamilə haqlı olaraq bu məsələyə toxundunuz. Doğrudan da, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu cəmi 44 gün ərzində bütün beynəlxalq müqavilələrə ciddi əməl edərək apardığı Vətən müharibəsində möhtəşəm qələbə qazandı və Ermənistanı məğlub etdi. Əlbəttə, bu qələbənin əldə olunmasında türkdilli xalqların aparıcı dövləti olan Türkiyənin müharibənin ilk günlərindən başlayaraq ən yüksək səviyyədə Azərbaycanın yanında olduğunu dəfələrlə bəyan etməsi gücümüzə güc verdi, xalqımızla ordumuzun birliyini daha da möhkəmləndirdi, Silahlı Qüvvələrimizin özünəinamını artırdı. Bütün bunlar isə müharibədə qalib gəlməyin əsas amilləridir. Bu amillər, xüsusilə o halda daha güclü olur ki, müharibə haqqın, ədalətin bərpasına yönəlir, ölkənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılır. Bizim apardığımız müharibə də bu xarakterdə olan müharibə idi, xalqımız və ordumuz Ermənistanın 30 ildən çox işğal altında saxladığı, bir milyona yaxın azərbaycanlını öz ata-baba yurdundan zor tətbiq etməklə qovduğu 20 faiz ərazimizi düşmən tapdağından azad etmək məqsədi ilə həyata keçirilirdi.

Qardaş Türkiyə xalqı və dövləti də Azərbaycanı dəstəkləməklə həmişə haqqın və ədalətin yanında olduğunu bir daha sübut etdi. Onu da qeyd etmək lazımdır ki, Türkiyə hələ Osmanlı imperiyası dövründə də müharibədə qalib gəldiyi ölkələrdə həmin ölkələrin idarəçiliyini öz üzərinə götürməyib, həmin ölkələrin daxili işlərinə heç vaxt qarışmayıb və hazırda çox işlənən "5-ci kalon" yaratmayıb. Ona görə də Osmanlı imperiyası dünyanın ən demokratik imperiyası kimi tarixə düşüb. Türkiyə indi də hansı ölkəyə və ya xalqa dəstək verirsə, bunu sonrakı dövrlərdə hər hansı güzəşt əldə etmək və ya həmin ölkəni öz təsir dairəsində saxlamaq niyyəti ilə etmir. Eyni zamanda Türkiyə dəfələrlə sübut edib ki, o, sözünün ağasıdır və müəyyən bir məsələyə dair verdiyi qərarı sona kimi müdafiə edir. Bunu son illər baş verən hadisələr də təsdiq edir. Belə ki, Rusiya Federasiyasında S-400 hava hücumundan müdafiə sistemlərinin alınmasında Amerika Birləşmiş Ştatlarının davamlı və kəskin təzyiqlərinə baxmayaraq, sözündən dönməməsi, Rusiya ilə hazırda sıx əlaqələr yaratmasına baxmayaraq, Krımı indi də Ukrayna ərazisi kimi tanıdığını bəyan etməsi, 3 milyondan çox suriyalı qaçqının Türkiyə ərazisində müvəqqəti olaraq məskunlaşmasına imkan yaratması və ölkənin iqtisadi çətinliklə üzləşməsinə baxmayaraq, suriyalı qaçqınlara on milyard dollarlarla vəsait xərcləməsi dediklərimizi təsdiq edir. Bu həm də onu təsdiq edir ki, Türkiyə əlverişli və etibarlı tərəfdaşdır, tərəfdaş olduğu ölkələrlə bərabərhüquqlu və hər bir tərəf üçün sərfəli əməkdaşlığı daim möhkəmləndirməyə və daha da dərinləşdirməyə can atan bir ölkədir. Bunu həm də 44 günlük Vətən müharibəsindən sonra 2021-ci il iyunun 15-də Şuşa şəhərində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibəti haqqında Şuşa Bəyannaməsi"nin hər iki ölkənin liderləri tərəfindən imzalanması da sübut edir.

Həm əvvəlki dövrlərdə, həm Azərbaycanın erməni işğalçılarına qarşı apardığı Vətən müharibəsi zamanı, həm də bundan sonra baş verən bu hadisələr açıq şəkildə göstərir ki, türkdilli dövlətlər formatında əməkdaşlığın dərinləşməsi hər bir dövlət üçün böyük önəm daşıyır və gələcək inkişafın əsasını təşkil edir. Çünki bu formatda əməkdaşlıq edən dövlətlərdən heç biri özünü "böyük qardaş" kimi aparmır, hamı bərabərhüquqlu tərəfdaşdır. Elə son vaxtlar türkdilli dövlətlər arasında əməkdaşlığın gedişində baş verən canlanma bununla bağlıdır. Bu canlanmanın isə belə intensiv xarakter almasında, şübhəsiz ki, 44 günlük Vətən müharibəsində Türkiyənin və digər türkdilli dövlətlərin Azərbaycanın haqq işini dəstəkləməsinin xüsusi əhəmiyyəti var. Onu da bildirmək istəyirəm ki, əlaqələrimizin sıxlaşması yalnız dövlət və parlament səviyyəsində deyil, həm də digər istiqamətlərdə də müşahidə edilir. Bu yaxınlarda Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, professor Eldar Quliyevin Ankarada Türk Dövlətləri Təşkilatının sədri Binəli Yıldırımla görüşməsi, həmçinin onun rəhbərliyi ilə Azərbaycan Ağsaqqallar Şurasının nümayəndə heyətinin Aşqabadda işgüzar səfərdə olması və Türkmənistan Milli Şurasının Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovla görüşlər keçirməsi, habelə sentyabrın sonlarında Özbəkistana gözlənilən səfəri türkdilli dövlətlərin əməkdaşlıq ənənələrinin möhkəm tellərlə bağlı olduğunu sübut edir. Bu, bütün xalqların birliyini əks etdirir və ona görə də uzunömürlü olmaqla hər bir tərəf üçün əlverişlidir. Bir daha qardaş və dost özbək xalqını 1 Sentyabr Müstəqillik Günü münasibətilə təbrik edirik. Müstəqilliyiniz mübarək və daimi olsun!

***Müsahibəni apardı:***
***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

**Ölkəmizin inkişaf yolunda atdığı inamlı addımlar müdrik və uzaqgörən siyasətçi, müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təmələ əsaslanır. Bu gün Azərbaycan dövlətçiliyinin təməli də güclü xalq, güclü dövlət və güclü liderin vəhdətindən yoğrulub. Bu baxımdan Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyevin şəxsində Azərbaycanın dinamik inkişafı, onun hazırkı mürəkkəb zamanda apardığı daxili və xarici siyasət, əldə olunan nailiyyətlər vətəndaşlarımızda gələcəyə inamla baxmağa əminlik yaradır.**



# Zaman keçdikcə gəncləşən qədim Gəncə










Məlum məsələdir ki, Azərbaycanın inkişaf etmiş dövlətlər sırasına çıxmasına rəvac verən ən ümdə məsələlərdən biri hakimiyyətlə xalq arasında vəhdət yaradan yerli icra strukturlarıdır. Məhz bu strukturların Prezidentin verdiyi qərar və sərəncamları düzgün və vaxtında həyata keçirmələri regionların sosial-iqtisadi, milli-mənəvi yüksəlişini şərtləndirir. Bu mənada son illər qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Gəncə şəhərinin tarixinə sürətli sosial-iqtisadi inkişaf, quruculuq və abadlıq dövrü kimi həkk olunmuşdur. Prezident İlham Əliyevin göstəriş və sərəncamları çərçivəsində Gəncədə sürətli və genişmiqyaslı quruculuq və abadlıq işlərinə start verilmiş, istər sosial, istərsə də iqtisadi sahədə bir-birindən dəyərli layihələr həyata keçirilmişdir. Bu gün də şəhər əhalisinin içməli suya olan tələbatının ödənilməsi, qaz təchizatının yaxşılaşdırılması, müasir küçə işıqlandırılması sisteminin qurulması, çoxmənzilli yaşayış binalarının fasadlarının və dam örtüklərinin yenilənməsi, lift təchizatının yaxşılaşdırılması, yolların təmiri, mədəniyyət, səhiyyə və təhsil ocaqlarının müasir tələblər səviyyəsində yenidən qurularaq sakinlərin istifadəsinə verilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Həmin işlər təkcə şəhər mərkəzini yox, ətraf küçə və yaşayış massivlərini də əhatə edir.

Hazırda Gəncə şəhərində həyata keçirilən ən önəmli və genişmiqyaslı layihələrdən biri "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsidir. Şəhərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını hədəfləyən bu layihənin icrası uğurla davam edir. Layihə çərçivəsində şəhərin su təchizatı sisteminin yenidən qurulması üzrə işlərin 43 faizi, kanalizasiya sisteminin yenidən qurulması üzrə isə 40 faizi başa çatıb.

Gəncənin küçələrinin, qəsəbə və məhəllədaxili yollarının asfaltlanması da sözügedən layihəyə paralel aparılır. Artıq su-kanalizasiya sistemlərinin yenilənməsi işləri tam başa çatan 100-ə yaxın küçədə abadlıq işləri görülmüş, 20-dən artıq küçədə təmir işləri aparılmış, 50-yə yaxın küçənin asfalt örtüyü yenilənmişdir. "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi çərçivəsində içməli su və çirkli su xətlərinin çəkilişi və yenilənməsi tam yekunlaşan ərazilərdə asfaltlanma işləri hazırda davam etdirilir. Növbəti mərhələdə daha 50-dək küçədə analoji işlərin aparılması nəzərdə tutulub.

Gəncədə icra olunan digər irimiqyaslı layihə isə müasir küçə işıqlandırılması sistemlərinin qurulması ilə bağlıdır. Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycanın 7 şəhər və rayonunun, o cümlədən Gəncənin küçə işıqlandırılması sistemi yenidən qurulur. Layihə çərçivəsində ümumi uzunluğu 245 kilometr olan kabel xəttinin çəkilməsi, 8155 işıq dirəyinin quraşdırılması nəzərdə tutulur. Hazırda bu işlərin böyük bir hissəsi başa çatdırılıb. İndiyədək 400-ə yaxın küçədə 7650 işıq dayağı quraşdırılıb. Layihə çərçivəsində aparılan yoxlama və quraşdırma işləri tam yekunlaşdıqdan sonra yeni işıq dirəkləri quraşdırılmış bütün ərazilərə enerjinin verilişi təmin olunacaqdır. Layihənin cari ilin sonunadək icra olunacaq növbəti mərhələsində daha 300 küçədə işıq dayaqlarının quraşdırılması, güc kabellərinin çəkilməsi nəzərdə tutulur. Bir neçə mərhələdə icra olunan layihənin sonunda Gəncə şəhərinin bütün küçə və prospektlərində müasir küçə işıqlandırılması sistemi qurulacaqdır.

Gəncədə çoxmənzilli yaşayış binalarının dam örtüklərinin yenilənməsi və fasadlarının təmirinə də diqqət yetirilir. Şəhərdə ümumilikdə 865 çoxmənzilli yaşayış binası mövcuddur ki, onlardan da 645-nin dam örtüyü tamamilə yenilənib. Daha 220 çoxmənzilli yaşayış binasının dam örtüklərinin yenilənməsi istiqamətində işlər davam edir. Gəncədə olan çoxmənzilli yaşayış binalarının fasadlarının təmiri ilə bağlı da müəyyən işlər görülür. Mənzil fondu əsaslı təmir olunan 208 binanın 30-dan çoxunda işlər son 3 ildə icra edilib. Növbəti mərhələdə daha 60 binanın fasadının təmiri planlaşdırılır.

Çoxmənzilli yaşayış binalarının həyətlərinin abadlaşdırılması da diqqətdə saxlanılan məsələlərdəndir. Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Kəpəz və Nizami bələdiyyələri tərəfindən şəhər ərazisində "abad məhəllə"lər yaradılır. "Abad məhəllə" layihəsi çərçivəsində məhəllələrdə asfalt örtüyü salınır, tamet daşlar vurulur, yeni bardurlar, işıq dirəkləri quraşdırılır, məişət tullantıları üçün qutular yerləşdirilir. Eyni zamanda yaşıllaşdırma işləri aparılır, dekorativ ağaclar əkilir, yaşıllıqların suvarılması üçün su xətləri çəkilir. Çoxmənzilli yaşayış binalarının həyətləri abadlaşdırılarkən sakinlərin istirahəti də nəzərə alınır. Sözügedən ərazilərə söhbətgahlar və oturacaqlar yerləşdirilir, uşaq meydançaları quraşdırılır. Şəhərdə həyata keçirilən məhəllələrarası abadlıq işləri mərhələli şəkildə bütün yaşayış binalarının həyətlərində aparılacaqdır.

Bir daha qeyd etmək yerinə düşər ki, Gəncə şəhərində həyata keçirilən bütün layihələr dövlət başçısının Nizami yurduna göstərdiyi xüsusi diqqətin və qayğıkeşliyin nəticəsidir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Gəncə şəhərinə səfərləri bunun bariz nümunəsidir. Prezidentin Gəncəyə səfərləri həmişə unudulmaz və əlamətdar olur. Şəhərdə müxtəlif obyektlərin təməlqoyma və açılış mərasimlərində Prezidentin şəxsən iştirak etməsi və xeyir-duası qiymətlidir, əzizdir. Son 4 ildə Prezident İlham Əliyevin iştirakı ilə Gəncədə bir sıra iqtisadi və sosialyönümlü obyektlər istifadəyə verilib. "NB Satınalma və Ticarət" MMC-nin Süni Mərmər və Qranit İstehsalı Zavodu, 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusu, "Şah Abbas" və "Uğurlu Xan" karvansara kompleksi, Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusu, Gəncə Dövlət Dram Teatrının yeni binası, 2 saylı Gəncə Regional "ASAN xidmət" Mərkəzi, Azərbaycan Dəmir Yolları" QSC-nin Lokomotiv Deposu bu qəbildən olan obyektlərdəndir.

Prezident İlham Əliyevin dəstəyi sayəsində təhsil müəssisələrinin maddi-texniki bazasının inkişafı, yeni məktəb binalarının tikintisi istiqamətində də işlər davam etdirilir. Şəhərdəki təhsil müəssisələrinin müasir səviyyədə yenidən qurulması, yenilərinin inşası prioritet məsələlərdən biri olmaqla daim diqqət mərkəzində saxlanılır. Son 4 ildə Gəncə şəhər 7, 18, 28 və 34 nömrəli tam orta məktəb binaları müasir standartlar səviyyəsində yenidən qurularaq şagird və müəllimlərin ixtiyarına verilib. Bununla yanaşı, Gəncə Dövlət Universitetinin 5-ci tədris binasında TİKA-nın dəstəyi ilə Nuru Paşa adına Kitabxana yaradılıb, Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı çərçivəsində Gəncə Şəhər Peşə Təhsili və Təlim Məktəbində yeni təlim emalatxanası istifadəyə verilib.

Yenidən qurularaq istifadəyə verilən müəssisələrdən biri də Pensiyaçıların Ərazi Sosial Xidmət Mərkəzidir. Bununla yanaşı, 2 nömrəli Şəhər Poliklinikasında və Təcili Tibbi Yardım Xəstəxanasının inzibati binasında cari təmir işləri aparılıb, 2 korpus və yardımçı binalardan ibarət olan Gəncə Şəhər Psixiatriya Xəstəxanasının tikintisi yekunlaşıb.

Bu gün Azərbaycanda gənclərə diqqət və dəstək dövlət siyasətinin mühüm tərkib hissəsidir. Ümummilli Lider Heydər Əliyevin gənclərə göstərdiyi xüsusi qayğıkeşlik, Azərbaycan dövləti üçün qoyub getdiyi irs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Onların sırasında gəncəli gənclər də az deyil. Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və dəstəyi ilə gənc nəslin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, gənclərin faydalı məşğulluğunun təmin edilməsi, idmanın dəstəklənməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Gəncə İdman Liseyi Heydər Əliyev Fondu tərəfindən yenidən qurularaq istifadəyə verilib. Heydər Əliyev Park-Kompleksinin ərazisində futbol meydançasının inşası başa çatıb, Yeni Gəncə yaşayış massivi və Sadıllı qəsəbəsində yerləşən minifutbol meydançaları yenidən qurulub. Gəncə şəhər 1 nömrəli Uşaq Gənclər İdman Şahmat Məktəbinin yeni korpuslarının və idman qurğularının, habelə Futbol Akademiyası və Təlim Mərkəzi və Gəncə İdman Sarayının inşası isə davam edir.

Gəncədə yerləşən mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, mədəni irsin qorunması, tarixi-memarlıq abidələrinin bərpası və mühafizəsi də daim dövlətin diqqət mərkəzindədir. F.Əmirov adına 1 nömrəli Uşaq Musiqi Məktəbinin, Uşaq Rəssamlıq Məktəbinin və N.Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyinin təmir-bərpa işləri bu qəbildəndir.

Fərqli illərdə müxtəlif titullara sahib olan Gəncə 2019-cu ildə "Avropanın İdman Şəhəri" tituluna layiq görülmüş, UNESCO-nun Öyrənən Şəhərlər üzrə Qlobal Şəbəkəsinə üzv seçilmişdir. Nizami yurdu üçün ən uğurlu layihələrdən biri isə Gəncənin Avropa və Yenidənqurma İnkişaf Bankının "Yaşıl şəhərlər" layihəsinə qoşulmasıdır. Gəncə bu proqrama Prezident İlham Əliyevin təşəbbüsü ilə qatılıb. Onu da qeyd edək ki, Gəncə Azərbaycanda AYİB-in "Yaşıl şəhərlər şəhər dayanıqlılıq proqramı"na qoşulan ilk şəhərdir.

Gəncədə olan yaşıllıq zolaqlarının qorunub saxlanılması, yeni yaşıllıq zolaqlarının salınması istiqamətində mütəmadi iş aparılır - yaşıllıq zolaqlarına daim qulluq göstərilir, şəhər ərazisində mütəmadi olaraq iməcilik və ağacəkmə aksiyaları təşkil olunur və s. Bu istiqamətdə atılan addımlardan biri də Gəncənin Ekoloji Park Kompleksinin yaradılmasıdır. Gəncə Şəhər İcra Hakimiyyəti Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin Yaşıllaşdırma şöbəsinin gülçülük sahəsində 11 hektar ərazini əhatə edəcək parkda müxtəlif növ gül-çiçək, eləcə də ağac tingləri yetişdirilməsidir. Burada həmçinin əyləncə mərkəzləri, idman qurğuları, iaşə obyektləri olacaq. Kompleksdə həmçinin müxtəlif növ balıqların saxlanılması üçün akvariumun quraşdırılması nəzərdə tutulub.

Gəncə son illər bir çox beynəlxalq tədbirlərə, əhəmiyyətli layihələrə evsahibliyi edib. Bu sırada Azərbaycanda alman irsinin izlərinə və memarlığına həsr edilən "Germaniajan" sərgini, "İMAGİNE Avro" tolerantlıq festivalı çərçivəsində fransız fotoqrafı Nikolas Landermanın fotosərgisini, "Regional İnkişaf" İctimai Birliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Velosiped İdman Federasiyasının təşkilatçılığı ilə "Gəncə - 2019-cu ilin Avropa İdman Şəhəri" layihəsi çərçivəsində keçirilən velosiped yürüşünü, Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə keçirilən "VI Challenge Gəncə" - idman avtomobillərinin yarışı və şousunu qeyd etmək olar.

Gəncədə görülən işlərdən söz açarkən, dünyanı çənginə alan COVID-19 pandemiyasına qarşı həyata keçirilən tədbirlərdən danışmamaq mümkün deyil. Nazirlər Kabineti yanında Operativ Qərargahın göstərişlərinə əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyasının şəhər ərazisində daha geniş yayılmasının qarşısının alınması məqsədilə Gəncədə də müvafiq tədbirlər görüldü. İlk növbədə Gəncə Şəhər İcra Hakimiyyəti başçısı yanında Koronavirusa Qarşı Mübarizə Qərargahı yaradıldı, qərargahın Qaynar xətti istifadəyə verildi. Şəhərdə dezinfeksiya işləri, maarifləndirmə tədbirləri, aztəminatlı ailələrə, tənha yaşayan 65 yaşdan yuxarı sakinlərə yardım aksiyaları həyata keçirildi.

2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi rəşadətli Azərbaycan Ordusunun şanlı qələbəsi ilə yekunlaşdı. Qələbə neçə igid övladlarımızın qanı, canı bahasına əldə edildi. Gəncə Vətən müharibəsi dövründə 100-dən artıq şəhid verdi. Üstəlik, cəbhə bölgəsindən xeyli aralıda yerləşməsinə baxmayaraq, şəhər mənfur düşmənin hədəfinə çevrildi. Gəncə 4, 5, 8, 11 və 17 oktyabrda erməni silahlı qüvvələri tərəfindən raket atəşlərinə məruz qaldı. Ermənistanın törətdiyi hərbi cinayətlər nəticəsində 1-i körpə, 5-i uşaq və yeniyetmə, 10-u qadın olmaqla 26 dinc sakin həlak oldu, 142 mülki şəxs yaralandı.

Bununla belə, düşmən Azərbaycan xalqının mübariz ruhunu qıra bilmədi. 44 günlük Vətən müharibəsinin hər günü Azərbaycanın şanlı tarixinə çevrildi. 8 Noyabr - Zəfər Günü isə arzu və istəklərimizin zirvəsi oldu.

Müharibə iştirakçıları və şəhid ailələrinin təklifi nəzərə alınaraq Gəncənin Şəhidlər xiyabanında üzərinə itkin düşmüş 90 nəfərin adı həkk olunan lövhə quraşdırılıb. Bununla da I Qarabağ savaşında itkin düşmüş Gəncə şəhər sakinlərinin adları əbədiləşdirilib.

Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən Gəncə şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Gəncənin "İstiqlal" parkında "Memorial Abidə Kompleksi" inşa edilib. Ümumi sahəsi 1200 kvadratmetr olan kompleksdə uzunluğu 50, hündürlüyü 5 metr olan lövhələrin üzərinə ümumilikdə 600-ə yaxın şəhidin şəkli və müxtəlif atributlar vurulub. "Memorial Abidə Kompleksi"nə daxil olan qalib Azərbaycan əsgəri heykəlinin hündürlüyü isə postamentlə birlikdə 5 metrdir. Buraya Vətən müharibəsi şəhidlərinin xatirəsinə iki bulaq da çəkilib. Əlavə olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsinin yaşadılması və onların tanıdılması məqsədilə "Gencesehidleri.az" saytı yaradılaraq istifadəyə verilib.

Gəncədə Qafqaz İslam Ordusunun ilk şəhidlərinin xatirəsinə də abidə ucaldılıb. Azərbaycanın müstəqilliyi naminə qardaşlıq uğrunda 11 iyun 1918-ci il tarixdə Gəncədə canlarını fəda edən Qafqaz İslam Ordusunun ilk şəhidləri - 13 qəhrəman əsgərin xatirəsinə inşa edilən abidə Şah Abbas Cümə məscidinin önündə yerləşdirilib.

Dövlət başçısının müvafiq göstərişlərinə əsasən, dövlət qurumları mütəmadi olaraq şəhid ailələri və qazilərin qayğıları ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün tədbirlər görürlər. Gəncədə də şəhid ailələri və qazilər daim diqqət mərkəzindədirlər. Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov tez-tez şəhid ailələri və qazilərlə görüşür, onların müraciətlərini dinləyir, onları narahat edən məsələlərin həlli istiqamətində müəyyən tapşırıqlar verir, problemlərin bir çoxunu yerindəcə həll edir.

Ümumiyyətlə, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, sadəcə, həssas kateqoriyadan olan şəxslərə deyil, uşaqlara, gənclərə, yaşlılara, bir sözlə, bütün şəhər sakinlərinə diqqətlə yanaşır. O, mütəmadi olaraq şəhər ağsaqqalları ilə görüşlər keçirir, Gəncə Uşaq Evinin sakinlərini ziyarət edir. Dövlət başçısının tapşırıqlarına əsasən, Gəncədə şəhər rəhbərliyi tərəfindən sakinlərlə mütəmadi görüşlər təşkil olunur, onların şikayət və təklifləri dinlənilir. "Açıq mikrofon" şəraitində keçən görüşlərdə sakinləri narahat edən məsələlərin qanunamüvafiq qaydada həllinə çalışılır. Şəhər rəhbəri asudə vaxtını da şəhər sakinləri ilə keçirməyi üstün tutur.

Bir sözlə, qədim və həmişəcavan Gəncə Azərbaycanın sürətli və dinamik inkişafına öz töhfəsini verir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# REGİONLAR



## Ağdamın Ballar kəndində bərpa olunmuş suvarma sisteminin təqdimat mərasimi keçirilib

Ballar kəndində Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi tərəfindən "Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində "Ağdam rayonunun 9 kəndində suvarma sisteminin bərpa olunması" layihəsinin təqdimat mərasimi keçirilib.



Mərasimdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Yaponiyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi, yerli ərazi nümayəndələri, kənd ağsaqqalları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Bildirilib ki, "Ağdam rayonunun 9 kəndində suvarma sisteminin bərpa olunması" layihəsində məqsəd rayonun Quzanlı, Alıbəyli, Ballar, Birinci Yüzbaşlı, Bəybabalar, Böyükbəyli, İmamqulubəyli, Kəlbəhüseynli və Eyvazlı kəndlərinin istifadəyə yararsız quyutipli artezian suvarma sistemlərinin bərpa edilməsi və sözügedən kəndlərdə istifadəsi dayandırılmış kənd təsərrüfatına yararlı torpaq sahələrindən yenidən istifadə olunması nəticəsində fermerlərin gəlirlərinin artırılmasının təmin edilməsidir. Çıxış edən RİH başçısı belə bir layihənin Ağdam rayonunda tətbiq olunmasının əhəmiyyətini vurğulayaraq başda Yaponiyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi olmaqla layihənin ərsəyə gəlməsində əməyi olan hər bir kəsə xüsusi təşəkkürünü bildirib.

***L.QULİYEV, "Azərbaycan"***



## İgid ölər, adı qalar



**Şəhid Anar Əliyev** 1980-ci il avqustun 28-də Kəlbəcər şəhərində müəllim ailəsində anadan olub. İngilis dili müəllimləri olan ata və anasının 1981-ci ildə Ağdərə rayonunun Levonarx məktəbinə təyinatlarından sonra ailə həmin rayona köçüb.

1988-ci ildə isə milli zəmində olayların gərginləşməsi, daha doğrusu, tarixboyu özgəsinin torpaqlarına göz dikən, özgələrinin əlində maşaya çevrilən, torpaq iddiaları ilə dəfələrlə baş qaldırsalar da məğlub olan, "böyük hayastan" xülyası ilə yaşayan, özləri haqqında həmişə miflər yaradan və bu miflərin əsirinə çevrilən təcavüzkar Ermənistanın başladığı qanlı hadisələrdən sonra Əliyevlər ailəsi Tərtər rayonunun Bəyimsarov kəndinə köçmək məcburiyyətində qalır. Burada Anar yeddinci sinfi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmaq istədiyini bildirəndə valideynləri nəinki etiraz etmir, hətta onun bu istəyini alqışlayırlar. Vaqif müəllim oğlunu şəxsən Bakıya gətirir, məktəb rəisi ilə görüşür və fiziki cəhətdən o qədər də güclü olmayan Anarı xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı bu gələcək sərkərdələr beşiyinə əmanət edir. 13-14 yaşlarından əsgər çəkməsi və forması geyən Anar müəllim və komandirlərinin ümidlərini doğruldur, valideynlərini sevindirir.

Bakı Birləşmiş Komandirlər Məktəbində (indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) təhsil aldığı illərdə də Anar Əliyev seçilən kursantlardan olur və 2001-ci ildə həmin məktəbi uğurla bitirən gənc zabitin çətin və şərəfli xidmət dövrü başlayır. O, xüsusi təyinatlı manqa komandiri vəzifəsindən hərbi hissə komandiri vəzifəsinə, leytenantdan polkovnik-leytenant rütbəsinədək yüksəlir. Hansı hərbi hissədə, hansı vəzifədə xidmət etməsindən asılı olmayaraq, komandanlığın qarşıya qoyduğu vəzifələrin öhdəsindən layiqincə gələn zabit daim öz üzərində çalışır, respublikamızda və digər ölkələrdə təlimlərdə, ixtisasartırma kurslarında peşəkarlığını artırır, dünya ordularının qabaqcıl təcrübələrindən, hərb elminin ən müasir nailiyyətlərindən bəhrələnir, işgüzarlığı, yüksək iradi keyfiyyətləri ilə bütün çətinliklərdən uğurla çıxır.

Vətən müharibəsinin ilk günündən döyüşlərə can atan təcrübəli və peşəkar zabitin səs-sorağı az sonra Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdən gəlir və hərbi əməliyyatlar zamanı bir çox xüsusi tapşırıqların yerinə yetirilməsində fərqlənir. 2020-ci il oktyabrın 23-də Füzuli rayonunda döyüş tapşırığını yerinə yetirərkən polkovnik-leytenant Anar Vaqif oğlu Əliyev qəhrəmancasına şəhid olur.

Polkovnik-leytenant Anar Əliyevin peşəkar zabit, nümunəvi komandir kimi xidmətləri həmişə yüksək qiymətləndirilib. Sağlığında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Vətən uğrunda", Azərbaycan Respublikası Prezidenti adından müdafiə nazirinin əmri ilə "Şücaətə görə", Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001), Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008), Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013), "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci və 2-ci dərəcəli, "Qüsursuz xidmətlərə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medallarla təltif olunub.

Polkovnik-leytenant Anar Əliyevə ölümündən sonra isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ən yüksək fəxri ad - "Vətən Müharibəsi Qəhrəmanı" adı verilir və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülür.

Bu günlərdə qəhrəman zabitin doğum günü qeyd olunub. Bu münasibətlə İkinci Şəhidlər xiyabanına toplaşanlar şəhidin məzarını ziyarət ediblər. Mərasimdə respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda həlak olanların xatirəsinə birdəqiqəlik sükut elan edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək Tərtərin Vətən müharibəsində alınmaz qalaya, tərtərlilərin hər birinin isə mübariz əsgərə çevrildiyini qeyd edərək deyib: "Vaqif müəllim əslən Kəlbəcərdən olmasına, Anarın Kəlbəcərdə doğulmasına baxmayaraq, biz onları həm də tərtərli kimi tanıyırıq. Vaqif müəllim, Səkinə ana parlaq ziyalıdırlar, vətənpərvərdirlər, hamı onların hörmətini saxlayır. Bu cür valideynlərin Anar kimi oğul böyütməsi məntiqə uyğundur. Bu nəsildə qadın, kişi bilmədən hər kəs Vətənin dar günündə döyüşçü olur, həm ön, həm də arxa cəbhədə. Vaqif müəllimin bacısı Mələk xanım Birinci Qarabağ müharibəsi veteranıdır. Tərtərlilər bu ailə ilə fəxr edirlər".

M.Məmmədov onu da diqqətə çatdırıb ki, Tərtər şəhərində mərkəzi küçələrdən biri şəhidin adını daşıyır.

Tədbirdə digər çıxış edənlər qəhrəmanın keçdiyi şərəfli döyüş yolundan danışıb, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinin həmişə ehtiramla yad edildiyini vurğulayıblar.

Şəhidin valideynləri Vaqif müəllim və Səkinə ana, həyat yoldaşı Vüsalə Əliyeva çıxış edərək şəhid ailələrinə göstərilən diqqət və qayğıkeşliyə görə minnətdarlıqlarını bildiriblər.

**Şəhid Anar Hüseynov** isə 1997-ci ilin yanvar ayının 9-da Tərtər şəhərində doğulub. Qəhrəman döyüşçü 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib. Sentyabrın 30-da Ağdərə döyüşləri zamanı şəhid olan qəhrəman Bərdə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüşlərdə fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Anar Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov və Milli Məclisin deputatı Sahib Alıyev bu günlər şəhid Anar Hüseynovun Bakı şəhəri, Ramana qəsəbəsində yaşayan ailəsini ziyarət ediblər. Görüş zamanı qonaqlar şəhidin ailəsinin qayğıları ilə maraqlanıblar.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Yenikəndin köhnə növrağı

### Xələc üzümü indi də ağzımızın dadı, süfrəmizin bəzəyidir

**Salyanın abad, inkişaf etmiş kəndlərindən biridir Yenikənd. Kəndi ikiyə bölüb keçən Ələt-Astara magistral şose yolunun 40-cı kilometrliyində yerləşir. Rayonun Bakıya ən yaxın kəndlərindən biri olduğu üçün el arasında ona "Bakı Xələci" də deyirlər.**



Məlumdur ki, yol üstündə yerləşən yaşayış məntəqələri digərlərinə nisbətən daha çox inkişaf edir. Səbəbi sadədir: kəndin içindən keçən nəqliyyat vasitələri sərnişinlərin qısamüddətli dincəlməsi, habelə kiçik texniki qulluq üçün kənddə dayanmalı olur. Bu səbəbdən kənddə iaşə və ticarət xidmətinə, yanacaqdoldurma məntəqələrinə ehtiyac yaranır. Bunlar isə kənd əhalisinin güzəranına, kəndin abadlığına təsirsiz ötüşmür. Üstəlik, kənd camaatının, xüsusilə sərnişinlərlə alver edən adamların qazancı həm də ünsiyyət zamanı görüb-götürdükləri olur. Elə buna görə də Yenikənd Salyanın inkişaf etmiş və abad kəndlərindən biri sayılır. Vaxtilə burada tikilmiş evlər, salınmış bağça-bağlar bu gün də göz oxşayır.

Ümumiyyətlə, Yenikəndi fərqləndirən cəhətlər çoxdur. Normal həyat üçün burada, demək olar ki, bütün şərait var. Kənd əhalisinin işıq, qaz, yol sarıdan heç bir problemi yoxdur. 600 şagirdlik tam orta məktəb rayondakı yaxşı təhsil ocaqlarından biridir. Burada musiqi məktəbi də fəaliyyət göstərir. Kənd xəstəxanasında isə rayonun tanınmış tibb personalı çalışır. Poçt şöbəsi kənd adamlarını müxtəlif əməliyyatlar üçün rayon mərkəzinə və başqa ünvanlara üz tutmaq qayğısından azad etmişdir. Sahibkarlara yaradılmış münbit şərait kənddə işləyib qazanmağa əməlli-başlı imkan verir, təki istək olsun.

Bütün bunlardan danışarkən kənddən çıxan elm adamlarını, ziyalıları qeyd etməmək insafsızlıq sayılardı. Kəndin yetirmələri hələ keçmiş sovet dövründə Azərbaycanın müxtəlif ali məktəblərində dərs demiş, Salyan rayonunda, habelə digər rayonlarda rəhbər vəzifələrdə çalışmışlar.

Sovet dövründən söz düşmüşkən, həmin illər kənddəki "Bəşirabad" kolxozuna uzun müddət rəhbərlik etmiş Oruc Dünyamalıyev xaraktercə qurucu adam olmuşdur. Bakıda yaxşı dost-tanışı vardı. Ona görə də kəndin inkişafı, abadlığı üçün lazım olan nə varsa, alıb gətirməyə nail olurdu. Yerli əhali bunlara görə indinin özündə də onu minnətdarlıq hissi ilə yad edir, ruhuna dualar oxuyur. O illər təsərrüfatın əsas fəaliyyət istiqamətlərini pambıqçılıq, taxılçılıq və heyvandarlıq təşkil edib. Adamlar kolxozda işləməklə yanaşı, həyətyanı sahələrində üzüm yetişdirməklə məşğul olublar. Yenikəndin (Xələcin) üzümü indi də adladır. Burada yetişdirilən "Ağadayı", "Mahmudu", "Dərbəndi", "Kişmişi" üzüm sortları ağızların dadı-ləzzəti, süfrələrin bəzəyidir.

Bu yerdə bir əhvalatı xatırladaq. Salyanın birinci katibinin otağında aparat işçilərinin müşavirəsi keçirilirmiş. İclas vaxtı raykomun işçilərindən biri ayağa durub soruşur: "Yoldaş katib, respublikamızda pambıq əkib-becərən, yetişdirən təsərrüfatlar çoxdur. Hamımız yaxşı bilirik ki, Yenikənddə yaxşı süfrə üzümü yetişir. Ola bilməz ki, yuxarı orqanlar qarşısında məsələ qaldırıb, burada pambıq yox, respublika əhalisi üçün üzüm yetişdirilməsini təklif edək?" Birinci katib eynəyinin altından işçisini xeyli süzür və deyir: "Buna deyirlər avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Bilmirsən, pambığın qohum-əqrabası çoxdur? Səncə, Moskva buna icazə verər? Bilmirsən ki, pambığın alçaqboylu kolundan yıxılan bir də ayağa qalxmaz?"

Zaman keçdi, sular axıb duruldu. Ağlımıza gəlməyən başımıza gəldi. Müstəqilliyimiz bərpa edildi. Amma çətinliklərimiz də az olmadı. Həmin çətinliklərdən Yenikəndə də pay düşdü. Lakin çox çəkmədi bütün işlər sahmana salındı. Aqrar sektorda həyata keçirilən islahatlar kəndlilərin əl-qolunu açdı. Bundan yararlanan Yenikənd camaatı istədiyini, o cümlədən süfrə üzümünü yetişdirməyə başladı. Qazancları pis olmadı. Tikib-qurmağa, abadlıq işlərinə, uşaq oxutdurmağa, oğul evləndirməyə, qız köçürməyə bəs etdi.

Yenikənd kənd inzibati ərazi nümayəndəsi Pirverdi Cəfərovla söhbət zamanı məlum oldu ki, indi nümayəndəlik Yenikənd və Həsənli kəndlərini əhatə edir. Nümayəndəliyin yerləşdiyi Yenikənddə 5 min 500 nəfər əhali yaşayır və böyüklü-kiçikli 1850 təsərrüfat var. Kəndin əhalisi, əvvəllər olduğu kimi, bu gün də əkinçilik və maldarlıqla məşğuldur. Nümayəndəliyin ərazisində 180 hektar üzüm bağı salınmışdır. Adamlar növbəli əkin prinsipi ilə pambıq, taxıl və yonca əkirlər.

Nümayəndəliyin digər kəndi Həsənli də Yenikənddən geri qalmır. İki kənddə hazırda 2 məktəb, musiqi məktəbi, 2 xəstəxana, diş poliklinikası, 2 yanacaqdoldurma məntəqəsi, bazar, poçt, 3 klub-kitabxana, 9 kommersiya dükanı, mədəniyyət evi, 3 şadlıq sarayı, 4 ictimai iaşə obyekti və s. fəaliyyət göstərir.

Onu da qeyd edək ki, 1-ci və 2-ci Qarabağ müharibələrində kəndin 21 övladı şəhid olmuşdur. Bu gün yenikəndlilər şəhid həmyerlilərinin xatirəsini əziz tuturlar. Kəndin mərkəzində şəhidlərin xatirəsinə qoyulmuş lövhə bu ehtiramın yalnız görünən tərəfidir.

Bu gün nəqliyyat vasitələri cənub istiqamətinə və geriyə əsasən təzə yolla hərəkət edir. Buna baxmayaraq, Yenikənd və həmin yolun üstündəki digər yaşayış məntəqələrindən keçib gedən "köhnə yol"un əsaslı təmir edilməsinə hazırlıq işləri görülür. Sözsüz ki, təmir başa çatandan sonra "köhnə yol" Yenikəndi yenidən cana gətirəcək.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Sumqayıtdakı 2 saylı Şəhər Xəstəxanasının yenidən fəaliyyətə başlamasına çox qalmayıb



2 saylı Sumqayıt Şəhər Xəstəxanası şəhərin ilk tikililərindən biridir. Uzun müddət təmir edilmədiyindən xəstəxananın binası yararsız hala düşmüşdü.

Köməyə yenə də dövlət başçısı gəldi. Prezident İlham Əliyev 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yenidən tikilməsi və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi haqqında sərəncam imzaladı.

İndi köhnə xəstəxananın yerində təzə bina tikilib. Qeyd edək ki, əvvəllər 4 şöbəsi və cəmi 60 çarpayısı olan xəstəxana üçün beşmərtəbəli bina inşa edilmişdi. 150 çarpayılıq xəstəxanada isə tibbə aid bütün prosedurlar həyata keçiriləcək. Xəstəxana ambulator və stasionar şəkildə xidmət göstərmək üçün bütün avadanlıqlarla təchiz olunacaq.

Xəstəxananın geniş həyətyanı sahəsi də var. Burada xəstələr üçün gəzinti meydançaları, istirahət guşələri yaradılıb.

Xəstəxananın tikintisinə 2019-cu ildə başlanılıb və onun ilin sonlarında təhvil verilməsi nəzərdə tutulub.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Vətən müharibəsi zamanı dağılmış məktəb binası yeni dərs ilinə hazırdır

44 günlük Vətən müharibəsi zamanı erməni silahlı qüvvələrinin atdığı mərmilər Goranboy rayonunun bir neçə yaşayış məntəqəsində fərdi yaşayış evlərinə və sosial obyektlərə ciddi ziyan vurmuşdur.



Belə binalardan biri də rayonun Qaraçinar kəndindəki məktəb binası olmuşdur. "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində zərər vurulmuş obyektlərin bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, Qaraçinar kənd tam orta məktəbində əsaslı təmir-bərpa işləri aparılmış, qısa vaxt ərzində məktəb binası yeni dərs ilinə hazır vəziyyətə gətirilmişdir.

Tamamilə yenidən qurulan məktəb binasında tədrisin yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılmışdır. Burada fənn kabinələri, qapalı və açıq idman meydançaları yaradılmış, sinif otaqları yeni inventarlarla təmin edilmişdir. Məktəbin kollektivi sentyabrın 15-də yeni dərs ilini əsaslı şəkildə təmir edilmiş məktəbdə qarşılayacaq.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

◆ Jurnalist araşdırması

# Ödəmə terminalları niyə yoxa çıxıb?

## Avtobus dayanacaqlarının əksəriyyətindən "MilliÖn" ödəmə aparatlarının yığışdırılması sərnişinlərin narazılığına səbəb olub








Son vaxtlar paytaxtın avtobus dayanacaqlarında "BakıKart"ların balansının artırılması üçün nəzərdə tutulan ödəniş terminallarına, demək olar ki, rast gəlinmir. Bir-iki ay əvvələ qədər dayanacaqlarda mövcud olan terminalların bir çoxu yığışdırılıb.

Bu vəziyyət isə ictimai nəqliyyatdan istifadə edən vətəndaşların narahatçılığına və narazılığına səbəb olub. Çünki dayanacaqlarda karta gediş haqqı vura bilməyən vətəndaşlar kimdənsə onun əvəzinə pul ödəməyi xahiş etmək məcburiyyətində qalırlar. Ya da müəyyən məsafə qət edərək metro stansiyalarına, terminalların olduğu başqa ünvanlara üz tuturlar.

Bəs bu vəziyyətin yaranma səbəbi nədir? Vətəndaşları narahat edən məsələ ilə bağlı kiçik araşdırma apardıq.

### "Terminallar zərər verdiyi üçün yığışdırılıb"

"BakıKart"a ödənişlərin edilməsi iki sistemlə - "BakıKart" satış və yükləmə aparatlarında, həmçinin "MilliÖn" ödəmə terminalları vasitəsilə mümkündür. Hazırda "BakıKart" yükləmə aparatları əsasən metrostansiyalarda quraşdırılıb. Avtobus dayanacaqlarında isə "MilliÖn" terminalları ilə sərnişinlər kartlarının balansını artırırlar. O da həmin terminalları tapa bilsələr...

"BakıKart"ın rəhbəri Orxan Bayramov yükləmə aparatları ilə bağlı sualımıza cavabında bildirdi ki, hazırda "BakıKart" sisteminə inteqrasiya olunan 1350 "MilliÖn" ödəmə terminalları mövcuddur. Terminallar olmayan dayanacaqların yaxınlığındakı marketlərdə də ödəmə aparatları qoyulub. O.Bayramov ödəniş terminallarının sayının artırılıb-artırılmayacağı məsələsi ilə bağlı isə Bakıda bu istiqamətdə təkmilləşdirmə işlərinin aparıldığını vurğuladı.

"MilliÖn" şirkətindən isə qəzetimizə bildirdilər ki, müvafiq ərazilərdən yığışdırılan terminallara zərər verildiyi üçün bu addım atılıb. Qeyd edildi ki, qoyulan terminallar vaxtaşırı sındırıldığına, oğurlandığına, yararsız hala salındığına görə əvvəllər yerləşdirildiyi dayanacaq məntəqələrindən götürülüb. Beləliklə də, onların sayı azalıb.

Görünən odur ki, aidiyyəti qurumlar məsələnin həllini alternativ yollarda yox, birbaşa aparatları dayanacaqlardan götürməkdə görüblər.

### Onlayn ödənişlərdə də bəzi çətinliklər mövcuddur

Burada bir məsələ də diqqət çəkdi. Ödəniş terminallarından əlavə kartların balansını "online.bakikart.az" saytına daxil olmaqla da artırmaq mümkündür. Bunun üçün əvvəlcə portala daxil olub e-mail və yaxud telefon nömrəsi ilə qeydiyyatdan keçib şəxsi kabinet yaratmaq lazımdır. Şəxsi kabinet yaratdıqdan sonra "BakıKart"ın nömrəsini və bank kartının məlumatlarını əlavə edərək ödəniş həyata keçirmək olar.

Kart balansı 2 üsulla - birbaşa və ya kartın şəxsi kabinetə əlavə edilməsi ilə artırıla bilər. Əgər kart kabinetə əlavə edilərsə, daha operativ ödəniş etmək imkanı yaranacaq. Ödənilən məbləğ kartın balansına bir saat ərzində oturur.

Növbəti neqativ bir hal da elə burada baş verir. Belə ki, kartın balansının onlayn artırıldığı zaman məbləğin karta dərhal yüklənməməsi vətəndaşlar arasında narazılığa səbəb olur. Çünki belə vəziyyətdə sərnişin dayanacağa yaxınlaşıb kartının balansını yerindəcə artırmaq istəyərsə, dəqiqələrlə dayanıb balansa pulun yüklənməsini gözləmək məcburiyyətində qalacaq. Eyni zamanda şəxsi kabinetdə kartın balansındakı məbləğ də göstərilmir. Bu kimi hallara görə "BakıKart"a onlayn pul yüklənilməsi heç də əlverişli hal kimi qiymətləndirilmir. Çünki nəqliyyat vasitəsi vətəndaşı gözləmir.

Bu məqamla bağlı suala cavabında isə Orxan Bayramov portaldakı vəziyyətin texniki məsələ olduğunu söyləyərək məsələyə dəqiq cavab verə bilməyəcəyini bildirdi.

Bir sözlə, məsələ ilə bağlı hər iki aidiyyəti qurumdan hazırkı vəziyyətin aradan qaldırılması üçün görüləcək işlərlə bağlı cavab almağa çalışsaq da, təəssüf ki, cəmiyyəti maraqlandıran məqamlara aydınlıq gətirilmədi. Belə görünür ki, hər kəs bu günün "nadir tapıntısı" olan ödəmə terminallarından əlini üzməlidir. Əks halda sərnişin gününü yükləmə aparatlarının axtarışına çıxmaqla keçirməli olacaq...

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Ermənistan ordusunda cinayətlər leqallaşır

## Gənclər isə hərbi xidmətdən yayınmaq üçün ölkədən qaçıb gedirlər

Ermənistanda həmişəki kimi yenə də silahlı qüvvələrdə böyük problemlər yaşanır. Məğlub ölkənin ordusu istər döyüş qabiliyyəti, istərsə də təminat baxımından ciddi çətinliklərlə üzləşib. Ölkədə yaşanan demoqrafik problem səbəbindən ordunun şəxsi heyətlə təminatı sürətlə pisləşməkdə davam edir. Digər tərəfdən, orduda yaranan xaos səbəbindən gənclərin silahlı qüvvələrdə xidmətdən yayınması adi xarakter daşıyır. Belə vəziyyətdə ordudan yayınanların sayının artması bu xüsusda qaldırılan cinayət işlərinin də sayını çoxaldır.

Elə bunun nəticəsidir ki, son günlərdə Ermənistanda pul qarşılığında hərbi xidmətdən azadolma ilə bağlı qanun layihəsi geniş müzakirə mövzusuna çevrilib. Ermənistanın sabiq müdafiə naziri Davit Tonoyan deyib ki, təqdim olunan layihə hökumətin və siyasi hakimiyyətin "sülh gündəmi"nə uyğundur: "Şəxsən mən və Müdafiə Nazirliyi bu cür təşəbbüslərə həmişə öz etirazımızı bildirmişik. Mənim üçün layihənin təklif etdiyi parametrlər qəbuledilməzdir. Bu, vətənə xidmətdən azad olmaq üçün "fidyə" istəməkdir".

Ermənistanda cinayət işlərinin sayının azaldılması üçün isə yeni cəhdlər edilir. Elə buna görədir ki, Ermənistan parlamentinin 2018-ci ilədək 27 yaşı tamam olan və hərbi xidmətdən yayınan vətəndaşların müvafiq cərimə ödədikləri halda cinayət məsuliyyətindən azad edilməsi barədə qanuna dəyişiklik layihəsi ilk oxunuşda yekdilliklə qəbul edilib. Bu təşəbbüs Ermənistandan qaçan 2 mindən çox gəncin ölkəyə geri qayıtmasına və həbs edilmədən cərimə ödəməsinə imkan verəcəkdi.

Qeyd edək ki, Qarabağ müharibəsindən sonra Ermənistanda 27-35 yaşarası 3225 vətəndaşın orduda xidmətdən yayındıqlarına görə axtarışda olduqları açıqlanmışdı. Yerdə qalan hərbi xidmətdən qaçan minlərlə insan isə 27 yaş həddinə çatmayan gənclərdir. Hazırkı vəziyyətə olan məlumatlara əsasən, məcburi hərbi xidmətdən yayınan 10 min erməni gəncin axtarışda olması barədə faktlar mövcuddur. Ermənistan qanunvericiliyinə görə, həqiqi hərbi xidmət keçməyən, lakin yaşı 27-yə çatan vətəndaşlar cinayət məsuliyyətindən azad olmaq üçün 1,8 milyon dram və ya 3700 ABŞ dolları məbləğində cərimə ödəməlidirlər. Əks təqdirdə onlar həbs edilirlər. Lakin erməni mediası yazır ki, orduda xaos davam etdikcə, ölkədən daha çox sayda gəncin qaçmasını gözləmək mümkündür. Hökumətin pul müqabilində onları cinayət məsuliyyətindən azad etmək niyyəti hansısa nəticə verməyəcək.

"4rd.am" saytı dərc etdiyi məqalədə son bir ildə orduda baş verən neqativ halları şərh edərkən maraqlı faktlar açıqlayıb. Qeyd edilib ki, 2021-ci ildə Ermənistan ordusunda özünəqəsd hallarının sayı 20-ni ötüb: "Ümumilikdə isə orduda ölən əsgərlərin sayı 80-dən çoxdur. Əgər bir əsgər öz canına qıyırsa, demək, bunun arxasında kifayət qədər müəmmalı, şübhəli hallar var. Eyni zamanda əsgər-komandir inamsızlığı, etimadsızlığı mövcuddur və nizamnamədənkənar hallar baş verir. Valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyəti komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olması ilə bağlıdır. Yeni əsgərlər alçaldılır və döyülürlər".

Bütün bunların fonunda orduda fərarilik hallarının sayının artması təbii sayılır. Hesab edilir ki, qarşıdakı dövr ərzində erməni ordusunda daha böyük problemlər ortaya çıxacaq.

Bu arada Ermənistanda yerli və Qarabağ erməniləri arasında ciddi münaqişə yaşanmaqdadır. Hətta iş o yerə çatıb ki, İrəvan və Ermənistanın digər bölgələrində Qarabağdan gələnləri qəbul etmək istəmirlər. Bununla bağlı gəlmələrin Ermənistan mediasında saysız şikayətləri dərc olunub.

Bu günlərdə "Qallup"un apardığı sorğuya görə, 44 günlük müharibədən sonra Ermənistandan Qarabağa gələnlərin sayı azalıb. 56 faiz respondent müharibəyə qədər Qarabağa səfər etdiyini deyib. Sorğu mərkəzinin nəticələrinə görə, müharibədən sonra cəmi 12 faiz respondent Qarabağa getdiyini bildirib. Həmin 12 faizə isə Qarabağ erməniləri və bəzi fəallar daxildirlər. Digər yandan, "Qallup"un başqa bir sorğusuna görə, Ermənistanda seçkilər bu həftə keçirilsə, 16 faiz respondent Paşinyanın "Vətəndaş Müqaviləsi" Partiyasına, 5,1 faiz "Ermənistan", 2,7 faiz isə "Şərəfim var" bloklarına səs verməyə hazırdır. 33 faiz seçkilərdə iştirak etməyəcəyini bildirib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Pakistan dünya birliyindən kömək istəyir

## Ölkə tarixindəki ən böyük təbii fəlakət on minlərlə insanı evsiz-eşiksiz qoyub





Pakistan ərazisinin üçdəbiri su altında qalıb. Belə bir bəyanatla ölkənin Ətraf Mühit Nazirliyi çıxış edib.

Bir neçə aydır davam edən leysan yağışları nəticəsində ölkənin geniş ərazilərini su basıb. Daşqın artıq miqyasına və maddi ziyanın həcminə görə Pakistan tarixində ən böyük təbii fəlakət adlandırılır.

İslamabaddan verilən məlumata əsasən, artıq min nəfərdən çox insan daşqınların qurbanına çevrilib və ümumilikdə pis hava şəraiti 33 milyon pakistanlının həyatına təsir edib. İlkin hesablamalara görə, 900 mindən çox ev dağılıb və onların sakinləri başlarının üstündə damsız qalıblar. Çoxlu sayda insan yaralanıb.

"Euronews" telekanalı xəbər verir ki, Pakistanda üç milyondan çox insan ölkənin müxtəlif bölgələrində, xüsusən də ölkənin cənubunda yerləşən Sind və Belucistan əyalətlərində leysan yağışları və daşqınların yaratdığı kütləvi dağıntılar səbəbindən evlərini tərk etmək məcburiyyətində qalıb.

Bildirilir ki, iyunun ortalarından bəri 1061 insan təbii fəlakətin qurbanı olub və dağılmış on minlərlə tikilini bərpa etmək sual altındadır.

### Sanitariya vəziyyəti böyük narahatlıq doğurur

Xilasedicilər hələ də bir çox ərazilərə çata bilməyiblər. Qaçqınların maddi yardıma, yeməyə və içməli suya böyük ehtiyacı var.

Sanitariya vəziyyəti də ciddi narahatlıq doğurur. Belə ki, bu miqyasda daşqınlar yoluxucu xəstəliklərin yayılmasına səbəb olur.

Bir neçə gün əvvəl Pakistan hakimiyyəti yardım xahişi ilə dünya ictimaiyyətinə müraciət etmişdi. Birləşmiş Millətlər Təşkilatı İslamabada 3 milyon dollar ayrıldığını açıqlamışdı. Məlumata görə, BMT və Pakistan hökuməti musson yağışlarının fəlakətə çevrilməsindən sonra dünya ictimaiyyətindən 160 milyon dollar yardım istəmişdi.

### Qurbanların sayı dəqiqləşdirilir

Hava şəraitinin yaratdığı daşqınlar və sellər beş milyondan çox insana zərər yetirib. Ölənlərin dəqiq sayı isə hələ də məlum deyil.

Rəsmi məlumatlara əsasən, minlərlə kilometr yol dağılıb, əkinçilik və heyvandarlığa böyük ziyan dəyib. Hökumət bu daşqınları iqlim dəyişikliyi nəticəsində baş verən qlobal istiləşmə ilə əlaqələndirir.

Milyonlarla insan evsiz qalıb, məktəblər və səhiyyə ocaqları dağılıb, dolanışıq vasitələri və əsas infrastruktur məhv olub, insanların ümid və arzularını sel aparıb...

Baş nazir Şahbaz Şərifin dediyinə görə, təbii fəlakət nəticəsində 150-dən çox körpü dağılıb, yollar zədələnib ki, bu da xilasetmə işlərini çətinləşdirir. Hakimiyyət təxliyə və əhaliyə lazımi yardım göstərmək üçün hərbi aviasiyadan istifadə edib. Ən azı 6500 əsgər xilasetmə əməliyyatlarında və zərərçəkənlərə yardımda iştirak edir.

### Antonio Quterreş Pakistana yollanır

BMT-nin baş katibi Antonio Quterreş gələn həftə Pakistana səfər etmək və digər məsələlərlə yanaşı, həm də ölkəyə təcili yardım proqramlarını dəstəkləmək niyyətindədir.

Bu arada Baş nazir Şahbaz Şərif bildirib ki, İslamabad lazımi vəsaiti almasa, bunun nəticələri Pakistan xalqı üçün pis olacaq.

Hökumət başçısı əlavə edib ki, Pakistan başqa ölkələrdən humanitar yardım alır və tezliklə əhaliyə yardımın həcmi artırılacaq. Zərər çəkmiş bölgələrdə könüllülər işləyir və hökumət hər kəsi təbii fəlakətdən zərər çəkənlərə kömək etmək üçün üzərinə düşəni etməyə çağırır. Səlahiyyətlilər təbii fəlakətdən dəyən ümumi zərəri 10 milyard dollar həcmində qiymətləndirirlər və bunlar yalnız ilkin hesablamalardır.

Onu da qeyd edək ki, bu, musson mövsümünün ölkədə baş verən səkkizinci yağışlı dövrüdür, halbuki Pakistanda, adətən, üç və ya dörd belə dövr olur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanlı alim Praqa şəhərində keçirilən beynəlxalq konfransda məruzə ilə çıxış edib

İCOMAM (hərb tarixi, hərbi muzeylər və silah kolleksiyaları) və "QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyinin İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov Çexiya Respublikasının Praqa şəhərində keçirilmiş Beynəlxalq Muzeylər Şurasının 26-cı baş konfransında iştirak edərək "Muzeylər hərb tarixinin qoruyucusu: Azərbaycan, Türkiyə və Rusiya muzeylərinin nümunəsində" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə qeyd olunub ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində tarixi qələbəsi ilə 30 il erməni işğalında qalan tarixi torpaqlarını azad etdi. Bu tarixi qələbə nəticəsində regionda sabitlik yarandı. Ermənistan tərəfi isə hələ də kapitulyasiya şərtlərinə tam əməl etmir. Məruzədə Azərbaycanın dövlətçilik tarixinin əyani sübutu olan tarixi bayraqlarının, Gəncə xanlığının bayraqları nümunəsində Osmanlı imperiyasının bayraqları ilə genetik oxşarlığı qeyd edilib.




Sonra tədbir iştirakçıları Çexiya Respublikasının Müdafiə Nazirliyinin nəzdində fəaliyyət göstərən Hərb muzeyi və eləcə də Praqadan 35 km məsafədə yerləşən Leşanı şəhərindəki Hərb Texnikası muzeyi ilə (Tanklar, hərbi təyyarələr, raketlər və artilleriya) tanış olublar.

Daha sonra İCOM-in Beynəlxalq Muzeylər Şurasının 26-cı baş konfransı çərçivəsində Baş Assambleyanın iclasında səs çoxluğu ilə xanım Emma Nardi İCOM-in prezidenti seçilib. Beynəlxalq Muzeylər Şurasının 26-cı baş konfransında həmçinin komitənin fəaliyyət istiqamətləri müzakirə olunub.

Konfrans çərçivəsində P.Gözəlovun "Naxçıvan bayraqları" (Bakı-2015) və "Naxçıvan xanlığına məxsus üç bayraq" (Bakı-2016) kitabları əsasında nəşr olunmuş "Naxçıvan xanlığına məxsus üç bayraq" kitabının təqdimatı olub. Nəşrdə Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarında olan rəmzlərlə Azərbaycan Dövlət bayrağında istifadə edilən rəmzlərin eyniliyi barədə izahlı məlumat təqdim edilir. Bundan başqa, Naxçıvan və İrəvan xanlıqlarının bərabərhüquqlu müttəfiqliyini bildirən müttəfiq bayraqları haqqında ətraflı məlumat verilir. Həmçinin nəşrdə Azərbaycan tarixində ilk dəfə olaraq "Gülüstan" və "Buxarest" sülhünə əsasən, "Cənubi Qafqazın 1809-1817-ci illərin hərbi əməliyyat xəritəsi" çap edilib. Xəritədə Ermənistan dövləti və toponimləri yoxdur. Xəritə Qafqaz Hərbi Dairəsi Qərargahının hərbi-tarix şöbəsində tərtib edilib.

***"Azərbaycan"***

# Kəlbəcərdə hərbçilərimiz üçün

## "Yaşa, doğma Azərbaycan!" adlı konsert təşkil olunub





İşğaldan azad edilməsini otuz ilə yaxın müddətdə səbirsizliklə gözlədiyimiz doğma Qarabağda həyat canlanır. Hər bir azərbaycanlı üçün əziz olan bu torpaqlara bərpa və yenidənqurma işləri ilə yanaşı, mədəni həyat da qayıdır, müxtəlif tədbirlər, konsertlər keçirilir. Belə tədbirlərdən biri avqustun 31-də Vətənin keşiyində dayanan hərbçilərimiz üçün Kəlbəcər rayonunda yerləşən "N" saylı hərbi hissədə təşkil olunan konsert proqramıdır.

AZƏRTAC xəbər verir ki, "Yaşa, doğma Azərbaycan!" adlı konsert proqramında tanınmış azərbaycanlı müğənnilər Xalq artisti Emin, eləcə də Ellai, Bahh Tee & Türkan, Jony, Rauf & Faiq, gənc müğənni Cəmilə Həşimova və "The Excellent Music Band" qrupu bir-birindən maraqlı ifaları ilə hərbçilərimizə xoş anlar bəxş ediblər.















Konsertin açılışında gənc müğənni Cəmilə Həşimova "The Excellent Music Band" qrupunun müşayiəti ilə "Reyhan", "Bu gün hər şey yaxşı olacaq" və "Sənsiz" mahnılarını ifa edib.

Sonra səhnəyə çıxan tanınmış müğənnilər Bahh Tee & Türkan "Şirin yalan sözlər", "Kto ə bez tebə", "Prinüev ne suhestvuet", "Nujen", Ellai "Yar-yar", "V löbvi net çujix", "Ə ne perestanu", Rauf & Faiq "Veçera", "Ə löblö tebə", "Detstvo", "Kolıbelğnaə", JONY "Love you're voice", "Alleə", "Tı bespohadna", "Kometa", Xalq artisti Emin "Ə luçşe vsex jivu", "Sbejim v Baku", "Boomerang", "Yaşa, doğma Azərbaycan!" mahnılarını oxuyublar. Konsert gənc müğənni Cəmilə Həşimovanın ifasında "Simpy the best", "V gtom qorode" mahnıları ilə yekunlaşıb.

Azərbaycanın cənnət məkanı adlandırılan Kəlbəcərdə Vətənə, bayrağa, dövlətə, xalqa sonsuz sədaqətini nümayiş etdirən qəhrəman əsgər və zabitlərimiz konsert proqramı zamanı təqdim olunan rəngarəng musiqi nömrələrini alqışlarla qarşılayıblar.

Konsertdə jurnalistlərə müsahibə verən Xalq artisti Emin deyib: "Bizə işğaldan azad olunmuş ərazilərdə konsert vermək sevincini yaşatdığı üçün Azərbaycan Ordusuna təşəkkür edirəm. Burada - Kəlbəcərdə əsgər və zabitlərimizin qarşısında çıxış etmək olduqca qürurverici hissdir. Bu gün biz burada çıxış edirik. Çünki bu torpaqlar artıq azad olunub. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu igidlik göstərdi və ərazilərimizi işğaldan azad etdi".

Emin Kəlbəcərdən sonra işğaldan azad olunmuş digər ərazilərimizdə də konsert proqramı ilə çıxış edəcəklərini bildirib.

"İşğaldan azad edilmiş ərazilərdə çıxış etmək doğma diyar qarşısında borcumuzdur", - bu fikri isə populyar Rauf & Faiq musiqi duetinin üzvləri jurnalistlərə müsahibəsində söyləyiblər.

Burada çıxış etməyin unudulmaz hisslər doğurduğunu vurğulayan qrup üzvləri bildiriblər: "Sözün düzü, biz buraya gələndə inana bilmirdik. Bu torpaqlar haqqında çox eşitmişik, ailəmizdə tez-tez bu barədə danışırdılar. Fəxr edirik ki, 30 il sonra burada çıxış edənlərdən biri də bizik. Bu, heyrətamiz və çox xoşdur. Buna görə qürur duyuruq. Buraya gələcəyimiz, bu gözəl yerləri görə biləcəyimiz günləri çoxdan gözləyirdik. Adama elə gəlir ki, dünyanın heç bir yerində belə gözəl mənzərə yoxdur. Gördüklərimiz bizi çox duyğulandırır".

Doğma diyara gəldiyinə görə özünü hədsiz dərəcədə xoşbəxt hiss etdiyini vurğulayan Jony bildirib: "Torpaqlarımızın işğaldan azad edilməsi qürur hissi doğurur. Kəlbəcərə gəldiyimə görə gözlərimdən sevinc yaşları axır. Kəlbəcərin ab-havası, yol boyunca dağlar qeyri-adi təsir bağışlayır. Doğma diyara gəldiyimə və Azərbaycan əsgərləri qarşısında çıxış etməyimə görə hədsiz dərəcədə xoşbəxtəm".

Tanınmış müğənni Ellai də Kəlbəcərin gözəlliyinə heyranlığını xüsusi vurğulayıb. O, müsahibəsində bu barədə deyib: "Kəlbəcərdəki konserti səbirsizliklə gözləyirdim və ona görə bu gün çox həyəcanlıyam. Allah Azərbaycan Ordusunu qorusun! Onlar olmasa idi, biz burada olmazdıq. Mən avtomobillə Kəlbəcərə gələrkən buranın gözəlliyinə heyran oldum. Kəlbəcər çox gözəldir. Konsertdən sonra çox güman ki, İstisuya gedəcəyik".

Qeyd edək ki, konsert hərbçilərin, xüsusilə gənc əsgərlərin coşqusu, doğma Azərbaycanı vəsf edən mahnıların izdihamla səsləndirilməsi və müğənnilərin müstəqil dövlətimizə, Prezidentimizə, xalqımıza səmimi təbrikləri ilə yadda qalıb.

# Ermənistanın mina terroru davam edir

**Laçında kütləvi şəkildə beynəlxalq humanitar hüquqazidd PMN-G növlü minalar aşkarlanır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin birgə yaydıqları məlumatda bildirilib.

Qeyd edilib ki, Laçın rayonu ərazisində piyada əleyhinə mina sahələrindən cari il avqustun 15-dən 31-dək 1318 ədəd PMN-G növlü minalar aşkarlanıb.

Aşkar olunan minalar Vətən müharibəsindən sonra 2021-ci ildə Ermənistanda istehsal olunan minalardır.

Qeyd edək ki, beynəlxalq humanitar hüquqa əsasən, 1997-ci ildə qəbul edilmiş Ottava müqaviləsi piyada əleyhinə minaların istehsal edilməsi, saxlanılması, daşınması və istifadəsini qadağan edir.

Həmçinin Ermənistan işğaldan azad olunmuş ərazilərdə piyada əleyhinə minalar basdırmaqla 1949-cu il tarixli Cenevrə konvensiyalarının I Əlavə Protokolunun tələblərini pozur və bunu açıq şəkildə nümayiş etdirməklə beynəlxalq ictimaiyyətə hörmətsizlik nümayiş etdirir.

Ermənistanın basdırdığı piyada əleyhinə minaların kütləviliyi və sahələrin böyük miqyası bu ölkə tərəfindən həyata keçirilən mina terrorunun təzahürüdür. Bütün bunlar regionda sülhə və təhlükəsizliyə, ətraf mühitə qarşı qəsdən törədilmiş cinayətdir və Ermənistanın düşmənçilik niyyətinin əyani göstəricisidir.





# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# AZAL rəsmi saytın yenilənmiş versiyasını təqdim edib

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycanın milli aviadaşıyıcısı **www.azal.az** rəsmi saytının yenilənmiş versiyasını istifadəyə verib.

Yeni saytın naviqasiyası istifadə sadəliyi, funksionallığı ilə fərqlənir, bütün sayt ziyarətçilərinə və sərnişinlərə lazım olan məlumatların axtarışına sərf edilən vaxtın azaldılmasına imkan verir. Sayt həmçinin daha rahat interfeys və müasir dizayn ilə tərtib edilib.

Aviabiletlərin əldə edilməsinin bütün prosedurları tam optimallaşdırılıb. Yeni sayt maksimal dərəcədə sürətli və səmərəli alətə çevrilmişdir, onun sayəsində sərnişinlər təxsisetməni idarə edə və onlayn qeydiyyatdan (reysin uçuşundan 24 saat əvvəl açılır) keçə bilərlər.

Burada həmçinin daşıma qaydaları, COVID-19 pandemiyası dövründə aviaşirkətin reyslər yerinə yetirdiyi ölkələrə giriş qaydaları haqqında aktual məlumatlar yerləşdirilib.



"Azərbaycan Hava Yolları" aviaşirkətinin saytında aviaşirkətə tez-tez verilən suallara cavablar ilə məlumat bölməsi də təqdim edilib.

"Azərbaycan Hava Yolları"nın sosial şəbəkələrdəki rəsmi səhifələrində xəbərləri və yenilikləri izləmək olar:

- facebook.com/AzerbaijanAirlines
- instagram.com/azerbaijanairlines
- t.me/azerbaijanairlines
- twitter.com/AzalOfficial

# 10 ölkə, 20 şahmatçı

## Şuşada keçiriləcək ilk beynəlxalq turnirin iştirakçıları təsdiqlənib

Shusha Chess 2022

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası və Şuşa Şəhəri Dövlət Qoruğunun birgə təşkilatçılığı ilə mədəniyyət paytaxtımız Şuşada keçiriləcək ilk beynəlxalq şahmat turnirinin iştirakçıları təsdiqlənib.

Azərbaycan Şahmat Federasiyasından aldığımız məlumata görə, görkəmli şair və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr olunan "Shusha Chess 2022" beynəlxalq şahmat turniri 21-24 sentyabr tarixlərində iki kateqoriyada - kişilər və qadınlar arasında keçiriləcək. Hər kateqoriya üzrə 10 şahmatçı rapid və blits üzrə mübarizə aparacaq.

Kişi şahmatçıların yarışında ölkəmiz milli komandamızın üzvləri, üçqat Avropa çempionları Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Qədir Hüseynov, Rauf Məmmədov və 18 yaşa qədər şahmatçılar arasında Avropa çempionu Vasif Durarbəyli ilə təmsil olunacaq. Əcnəbi qrossmeysterlərə gəldikdə isə, bunlar Asiya çempionu Vanq Hao (Çin), 20 yaşa qədər şahmatçılar arasında dünya çempionu Santoş Qucrati Vidit (Hindistan), gənclər arasında dünya çempionatının qalibi Parham Maqsudlu (İran), FİDE dünya çempionu Rüstəm Kasımcanov (Özbəkistan) və Türkiyə çempionu, 2021-ci ildə Türkiyənin ən yaxşı şahmatçısı seçilən Mustafa Yılmazdır.

Qadınların yarışında milli komandamızın üzvləri, Avropa çempionatının mükafatçıları Günay Məmmədzadə, Gülnar Məmmədova, Ülviyyə Fətəliyeva, Xanım Balacayeva və Gövhər Beydullayeva iştirak edəcəklər. Xarici qonaqlardan isə Ümumdünya Şahmat Olimpiadasının qalibi, Avropa çempionu Nana Dzaqnidze (Gürcüstan), yeniyetmələr arasında dünya və Avropa çempionu, ölkəsinin ən reytinqli qadın şahmatçısı Marsel Efroimski (İsrail), 18 yaşlılar arasında dünya çempionu Yolanta Zavadzka (Polşa), yeniyetmələr arasında dünya və Avropa çempionu Nurgül Səlimova (Bolqarıstan) və Türkiyə çempionu Kübra Öztürk Güvənli qələbə uğrunda mübarizə aparacaqlar.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Ceyhun Məmmədova atası
**VALEH MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Ceyhun Məmmədova atası
**VALEH MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ceyhun Məmmədova atası
**VALEH MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər orta məktəbinin 1980-ci il buraxılış,10a sinfinin məzunları Elburus, İradə və Azadə Bəkirovlara anaları, Cəbrayıl rayonunda teleqraf sahəsində uzun müddət çalışmış
**TANYA BƏKİROVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Ceyhun Məmmədova atası
**VALEH MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi
**FİKRƏT QƏRİBOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyalarının İttifaqı Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi
**FİKRƏT ATLIXAN OĞLU QƏRİBOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Gəncə Apellyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Gəncə Apellyasiya Məhkəməsinin hakimi Elçin Xasməmmədova atası
**İSGƏNDƏR XASMƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

*Gündəlik qəzet*

**Tiraj 6455**
**Sifariş 2450**
**Qiymәti 40 qəpik**